# ƏXLAQ

**ALLAHIN PEYĞƏMBƏRİ (S) BUYURMUŞDUR:**

***«İslam gözəl əxlaqdır.»***

***«Gözəl əxlaq dinin yarısıdır.»***

***«Əxlaqı daha gözəl olan möminin imanı daha kamildir.»***

***«Bəndə, hərçənd ibadətdə zəif olsa da, özünün gözəl əxlaqı ilə axirətdə böyük dərəcələrə və ali məqamlara çatar.»***

***«Həqiqətən, xoşxasiyyət insan gündüzlər oruc tutan və gecələr ibadət edən kəsin savabına sahibdir.»***

***«Əməllər tərəzisində gözəl əxlaqdan ağır bir şey yoxdur.»***

***«Sizlərdən mənə ən sevimli və Qiyamət günü ən yaxın olan şəxs ən xoşxasiyyətliniz və ən çox təvazökar olanınızdır.»***

***«Pis əxlaq, bağışlanmayan günahdır.»***

***«Həqiqətən, bəndə özünün pis əxlaqına görə Cəhənnəmin ən aşağı dərəcəsinə enər.»***



# Qur'anın əxlaq sistemini necə anlayaq?!

***Bildiyimiz kimi, ümumi bir bölgüdə Quran ayələri "Məkkə" və "Mədinə" ayələri olmaqla iki əsas hissəyə ayrılır. Məkkə ayələrinin əsas əlamətlərini, onların yığcam şəkildə verilməsi, olduqca düşündürücü məzmuna və spesifik melodiyaya sahib olması kimi sadalamaq olar. Bu qəbildən olan düşündürücü məzmunlu ayələri nəzərə aldıqda ən önəmli, vacib ayələr kimi mənəviyyatı və müsbət əxlaqi dəyərləri qabarıq şəkildə aşılayan ayələrin şahidi oluruq.***

***Quran öz Məkkə ayələrində bizə təqdim etdiyi əxlaqi anlayışlar siyahısına ədalət, zülm, çirkinlik, pislik, yardımlaşma, paylaşma, vəfa, əmanətdarlıq və s. bu kimi əxlaqi anlayışlar daxildir.***

---

Qurani-Kərimdə qeyd olunan hər bir anlayışı, xüsusilə əxlaqi anlayışları araşdırdığımız zaman, metodoloji bir prinsipi daim diqqət mərkəzində saxlamalıyıq. Bu, anaxronizm (zaman pozuntusu) xətasına yol verməməkdir. Əxlaqi anlayışları realizə edərkən, onları öz gündəlik həyatımıza tətbiq edərkən bu xətaya yol verməməliyik. Yəni, bir əsrə mənsub olan əlamətləri, xüsusiyyətləri başqa bir əsrə daşımamalıyıq. Bu gün modern dünyamızda ədalət, zülm, pislik, yaxşılıq və s. əxlaqi anlayışlar necə qavranılırsa, onları eyni şəkildə premodern dünyaya tətbiq edə bilmərik və ya əksinə, çünki əxlaqi anlayışın daşıdığı komponetlər, elementlər öz formalaşdığı kontekstdə məna kəsb edir. Fərqli kontekstlərdə formalaşmış əxlaqi anlayışları eyniləşdirmək yanlış olardı. Bəli, bəzi məqamlarda ortaq yönlərin olması istisna edilmir, lakin çox zaman fərqlilik qabarıq olur.

Əxlaq fəlsəfəsinin dili ilə desək, "əxlaqi fel/davranış" bir kontekstdən başqa kontekstə nisbətən dəyişə bilir, yəni əxlaqi davranışın komponetləri fərqli kontekstlərdə, atmosferlərdə dəyişkən olur, lakin "əxlaqi dəyər" mahiyyət etibarilə həmişə sabit, dəyişməz qalır. Əxlaqi felin əxlaqi dəyərlə əlaqəsi məzmunun forma ilə olan əlaqəsi kimidir. Belə ki, forma məzmunsuz, məzmun da formasız həyata keçə bilmədiyi kimi əxlaqi dəyər də daim müəyyən əxlaqi bir fel çərçivəsində həyata keçir. Anaxronizm xətası prinsip olaraq yalnız əxlaqi fellərdə baş verir. Əsas olan bundan ibarətdir ki, biz bu fel və davranışları düzgün şəkildə təyin edə bilib, müəyyən bir kontekstdə formalaşan əxlaqi davranışın komponentlərini başqa kontekstə transfer etməyək.

Qeyd etmək lazımdır ki, müqəddəs mətnin (Quran və sünnə) bəzi yanlış oxunuşları, təfsirləri məhz yuxarıda qeyd olunan metodoloji prinsipə riayət edilmədiyindən meydana gəlmişdir.

Gəlin, anaxronizm xətasını bir neçə misalla izah edək. Arestotelden bu günə qədər dörd müsbət əxlaqi dəyər insanlar arasında yekdil olaraq qəbul olunmuşdur: ədalət, iffət, şücaət və hikmət. Sual: Bu gün modern dünyada yaşayan bir insanın bu anlayışlardan dərk etdiyi mənanı Arestotelin qədim yunandakı müxatəbləri də eyni mənada dərk edirdilərmi? Zənnimcə, cavab mənfidir, yəni ortada tamamilə eyniyyət mövcud deyil. Misal üçün, bu gün modern dünyada quldarlıq məsələsi, kimisə kölə kimi götürmək zülm və nəticə etibarilə qeyri-əxlaqi bir əməl hesab olunur. Biz modern dünyanın insanları olaraq bunu belə dərk edib dəyərləndiririk, amma premodern dünyada, keçmiş dövrdə yaşayan insanlar bunu normal bir iş kimi qəbul edirdilər; qul alqı-satqısı əxlaqi baxımdan problemli nəzərə çarpmırdı və o dövrün adamları bunu zülm və ya ədalətsizlik kimi dəyərləndirmirdilər, çünki onların

rasionallıq səviyyəsi bizim bu gün sahib olduğumuz rasionallıq səviyyəsindən fərqli idi. Məhz bu kontekst fərqliliyi vahid əxlaqi dəyərin iki fərqli felini yaratmışdır. Bu gün yaşadığımız modern dünyada ədalət əxlaqi bir dəyər kimi insanın fundamental hüquqlarını (yaşamaq, məskunlaşmaq, mülkiyyət, ifadə azadlığı, qanun qarşısında bərabərlik və s.) müdafiə etmək anlamını kəsb edir, ancaq keçmişdə insanlar arasında belə bir anlam yox idi, yəni bu qəbilədən olan komponentləri özündə ehtiva edən ədalətli bir davranış mövcud deyildi.

Bütün bu deyilənlər müqəddəs mətndə keçən əxlaqi anlayışlara da şamildir. Belə ki, peyğəmbərə vəhy enərkən müxatəblər öz rasionallıq səviyyəsinə uyğun olaraq məsələn, ədalət və zülm kimi əxlaqi dəyərləri fərqli bir davranış formasında həyata keçirirdilər ki, bu gün bizim qəbul etdiyimiz formalardan tam fərqli idi. Deməli, nə bu tərəfədən müqəddəs mətnə istədiyimiz mənanı yükləyə bilərik, nə də o tərəfdən. Müqəddəs mətndə mövcud olan mesajları əxlaqi bir dəyər kimi ruhunu alıb, əxlaqi fel müstəvisində onların mədəni tərcüməsini düzgün qavramalı və onları yenidən inşa etməliyik, yəni onları çağdaş rasionallıq səviyyəsinin tələb etdiyi formalar qəlibində həyata keçirməliyik.

Məsələn, Nəhl surəsinin 90-cı ayəsində belə oxuyuruq: “Həqiqətən, Allah ədalətli olmağı, yaxşılıq etməyi, qohumlara haqqını verməyi əmr edir, çirkin işləri (zina), pis işləri və zülmü qadağan edir. O, sizə nəsihət verir, bəlkə ibrət alasınız.”

Bu ayə, o dövrün insanlarına enərkən mətndə keçən əxlaqi anlayışlara müraciət etməzdən əvvəl, onlar barəsində ümumi bir dərkə malik idilər, həmin əxlaqi anlayışları öz ürfi anlam kontekstinə uyğun olaraq qavrayırdılar və əxlaqi dəyəri xüsusi bir “əxlaqi fel” çərçivəsində həyata keçirirdilər.

Qurani-Kərimdə ən mərkəzi əxlaqi anlayış “təqva” hesab olunur. Belə ki, bu anlayış bütün əxlaqi dəyərləri özündə ehtiva edir. Maidə surəsinin 8-ci ayəsində bu prinsip “Ədalətli olun. Bu, təqvaya daha yaxındır.”- deyə ifadə olunur. Ayədən də göründüyü kimi, burada təqva mərkəzi bir anlayış olaraq təqdim olunur və ədalət anlayışı isə bu çevrənin müəyyən bir nöqtəsində mərkəzə yaxın olan bir anlayış kimi göstərilir.

Təqva anlayışını səthi və dərin olmaqla iki fərqli mənada təsvir etmək olar.

a) Allahdan qorxmaq; Bu mənada, insan Allahla olan əlaqəsini “qorxu” üzərində tənzimləməyə çalışır. Yəni, bütün davranışlarını Allahdan qorxu əsasında tənzimləyir, belə ki, öz işlərində daim Allahı nəzərə alır, onun qəzəbinə səbəb olacaq əməllərdən çəkinir. Hərçənd, ona tabe olanda bu, könül xoşluğundan olmaya da bilər və ya tam bir razılıq əsasında da baş verə bilər. Burada əsas olan ondan ibarətdir ki, insan öz rəftarlarını məhz Tanrıdan qorxu fonunda həyata keçirir. Təqvanın bu mənasını əsgər-komandir və ya şagird-müəllim münasibətlərində də müşahidə etmək olar. Dəyərləndirmə məqamında bu mənanı səthi münasibət kimi nəzərdən keçirə bilərik. Fəlsəfi dillə ifadə etsək, təqvanın bu mənasını vasitəli bilik kateqoriyasına daxil edə bilərik. Təqva bu mənada zehni obrazlardan qaynaqlanan bilgi üzərində həyata keçir və insanın rəftarını tənzimləyir.

b) Allaha qarşı həyalı olmaq. Bu mənada, insanla Allah arasındakı münasibət “həya” üzərində qurulur. Yəni, insan bütün rəftar və davranışlarını həya üzərindən həyata keçirərərk, onları tənzimləməyə çalışır. Bu həya insan varlığının dərinliklərindən gələn sayğı və ehtiramdır. Fəlsəfi terminlə desək, bu məna vasitəsiz bilik fonunda həyata keçir, belə ki, insan ontoloji baxımdan həyalaşır, varlığı həya varlığına çevrilir. Bu mənada insanın Allaha qarşı sayğısı, ehtiramı, ona tabe olması, göstərişlərini yerinə yetirməsi qorxu üzündən deyil, varlığının dərinliyindən gələn bir həya üzərindən həyata keçir. Bu kimi münasibəti insanın böyük bir şəxsiyyətə qarşı nümayiş etdirdiyi davranışda da müşahidə etmək olar. Belə ki, həmin insan o şəxsiyyətə hörmət göstərərkən, qorxu üzündən deyil, əksinə, həya üzündən bunu edir.

Təqvanın bu ikinci təsviri fonunda nümunə olaraq aşağıdakı ayələri daha gözəl anlamaq olar, çünki həmin ayələrdə keçən əxlaqi davranışlar həyadan qaynaqlanan təqva ilə daha uyğunluq təşkil edirlər.

a) Məaric, 29-30-31-32-33-34-cü ayələr;
b) Muminun, 1-2-3-4-5-6-7-8-9-cu ayələr;
c) Furqan, 63-67-68-ci ayələr;
d) Həşr, 9-cu ayə.

Yuxarıda deyilənlərdən belə bir nəticə çıxarmaq olar ki, Quranın əxlaq sistemində keçən əxlaqi anlayışları öz həyatımıza tətbiq edərkən, anaxronizm xətasına yol verilməməlidir. Deməli, əxlaqi dəyərləri həmişə bir forma kimi, əxlaqi felləri isə öz kontekstində bir məzmun kimi nəzərdən keçirməliyik. Əxlaqi anlayışları isə həyadan qaynaqlanan mərkəzi dəyər- təqva əsasında xarakterizə edib, rəftar və davranışlarımızı çağdaş kontekst fonunda həyata keçirməliyik.

**Emin İmanlı**

# İSLAM DİNİ VƏ DOSTLUQ



***İslamda bir çox mövzular var ki, onlar kifayət qədər diqqət mərkəzində saxlanılmışdır. Həmin mövzulardan biri də "dostluq"dur. İslam dini insanı ictimai varlıq olaraq hesab etdiyindən onun bir sıra tərəqqi və yüksəlişini fərdi həyatından əlavə, ictimayi həyatında görür. İnsan bir çox işlərdə ehtiyac duyduğu və həmişə özünə arxa dayaq olaraq görmək istədiyi anların olduğundan, Allah-taala da insanın bu ehtiyaclarını təmin etmək üçün onun bəzi insanlardan yardım almasını və onlarla səmimi olub sirlərini bölüşməsini və bir-birlərini yaxşılığa dəvət edib pislikdən çəkindirməyə əmr etmişdir.***

Bəli, həmin sirlərini bölüşdüyün, sənə dar gündə əl uzadan və öz xeyrini sənin xeyrin bilib həmişə sevincini bölüşüb, qəminə şərik olan insanın adını, İslam dini "dost" olaraq öz mübarək kəlamlarında bizlər üçün açıqlamışdır.

İslamda dostluq mövzusu o qədər əhəmiyyətli bir mövzudur ki, hətta həzrət Peyğəmbərin (s) mübarək hədisində bir nəfərin din və imanını anlamaq üçün "onun dostlarına nəzər yetirin" deyə buyurur: "İnsan dostunun dinində olur. Elə isə kiminlə dostluq etdiyinizə diqqət yetirin. Həzrət İmam Əli (ə) insanın güc və qüvvəti onun dost tapa bilməsində, gücsüz və acizliyini isə dostunu itirməsindədir deyə belə buyurur: "Ən gücsüz insan o kəsdir ki, dost tapmaqda gücsüz olar. Ondan da gücsüzü o kəsdir ki, dostlarını əldən verər".

Yuxarıdakı mübarək və hikmətli kəlamlara diqqət yetirdikdə açıq aydın məlum olur ki, dost tapmağımız və bu həyatın eniş-yoxuşlarında əl ələ verib irəliləməyimiz üçün, başqaları ilə səmimi ünsiyyətdə olub həmkarlıq etməliyik.

Amma dost axtarıb tapmaq və kiminlə dostluq etməyimiz isə dostluq mövzusunun özündən daha əhəmiyyətlidir. Onun üçün İslam dini kimlərlə dostluq etmək, hansı İlahi və insani dəyərləri özündə daşıyan insanlarla səmimi ünsiyyətdə olub dərd-qəmini bölüşüb sirlərinə ortaq etməmiz üçün bir sıra ali sifətlərə malik olan insanları bizlərə nümunə göstərmişdir.

## Kimlərlə dostluq edək?

***1. Eyblərini sənə deyənlərlə.***

İmam Cəfər Sadiq (ə) bu haqda belə buyurur: "Dostların arasında hamıdan çox sevdiyim o kəslərdir ki, eyb və nöqsanlarımı mənə hədiyyə etsin."

***2. Alicənab, şəxsiyyətli, İlahi və insani dəyərləri daşıyanlarla.***

Peyğəmbər (s) buyurur: "İnsanların ən xoşbəxti o kəsdir ki, alicənab şəxslərlə əlaqə saxlasın."

***3. Allahı xatırladıb yad edənlərlə.***

Peyğəmbər (s) buyurur: "O kəslərlə dostluq edin ki, onları görməklə Allahı yada salasınız və onların söylədikləri şeylər və gördükləri hər bir iş sizlərə axirəti xatırlatsın."

***4. İlahi yolda sənə kömək edənlə.***

İmam Əli (ə): "Allaha itaət yolunda sənə kömək edən şəxs, ən yaxşı dostdur".

***5. Səni əbədi həyata dəvət edənlə.***

İmam Əli (ə): "Səni əbədiyyət sarayına çağıran və o saraya çatmaq üçün işləməkdə sənə kömək edən şəxs, həmin qayğıkeş dostundur".

Son olaraq iki mübarək hədisdə həzrət İmam Həsən Müctəba (ə) və İmam Sadiqin (ə) buyurduqları sifətləri siz əzizlərin xidmətinə çatdırmaq istərdim:

- İmam Həsən Müctəba (ə) öz səhabəsi Cünadə ibn Əbu Üməyyəyə kimlərlə dostluq edəcəyi haqda belə tövsiyə edir:

"Ünsiyyətdə olmaq istəyərkən o kəsləri özünə dost və yoldaş seç ki, onlarla dostluq etmək sənə vüqar və başıucalıq gətirsin. Onlara xidmət etdikdə, şəxsiyyətini

qiymətləndirsin, bir söz dedikdə, söylədiklərini təsdiq edib, onlara xeyir əlini uzatdıqda, yardım etsinlər. Hər hansı bir çatışmazlığını gördükdə, göz yumsun, gözəl rəftar və ya xüsusiyyət gördükdə isə qiymətləndirməyi bacarsın. Bir şey istədikdə, səxavətli və əliaçıq olsun, ehtiyac duyduğun, lakin ondan istəmədiyin şeyləri ixtiyarına qoysun və nəhayət, (səndən) xoşagəlməz rəftar gördükdə inciməsin."

- İmam Sadiq (ə) buyurur: "Dostluğun şərtləri vardır: Hər kim bu şərtlərin hamısına və ya bəzisinə riayət edərsə, onu dost saymaq olar. O kəsdə ki, bu şərt olmaz, onu dost hesab etmək olmaz. Bu şərtlər ibarətdir:

Batini və zahiri gözü olsun. Sənin izzətini öz izzəti və sənin eybini öz eybi bilsin. Əgər məqama və ya sərvətə çatsa, onda heç bir dəyişiklik olmasın. Onun qüdrət və gücü səni istədiyin şeyə çatmaqdan saxlamasın. Giriftar olan zaman səni buraxmasın".

İmam Əli (ə): "Həqiqi dost sənin eyblərinin aradan getməsi üçün nəsihət edən, sən olmadığın vaxt sənin malının, sərvətinin qeydinə qalan və səni özündən üstün biləndir".

Əvvəldə də qeyd etdiyimiz kimi, kiminlə dostluq etməli olduğumuz önəmli olduğu kimi, kimlərlə dostluq etməməyimiz haqda da İslam dininin özünə məxsus göstərişləri vardır.

Yenə də hədislərə diqqət yetirsək görürük ki, ümumi olaraq rəzil sifətlərin daşıyıcısı, İlahi və insani dəyərləri heçə sayan insanlardan uzaq olmamız əmr olunaraq, bu haqda bir sıra incəliklərə də işarə olunmuşdur.

Bunu da nəzərdən qaçırmamalıyıq ki, haram işlərdən çəkinməyən və günaha adət edən şəxslərlə ünsiyyətdə olmaq tez bir zamanda bizə də öz mənfi təsirini göstərəcək və onlar kimi bizim də qəlbimizi qaraldıb, ilahi əzaba düçar edəcək. Necə ki, qiyamət günü ah-nalə çəkən dəstələrdən biri bu dünyada layiqli dost tapmayanlardır.

Quran:

"Bir gün zalım öz əllərini didər və deyər: "Ey kaş, Allahın Peyğəmbəri getdiyi yolu gedəydim. Vay olsun mənə, kaş filankəslə dostluq etməyəydim. Quran mənə gəlib çatdıqdan sonra, o, məni Allahı yad etməkdən yayındırdı. Şeytan həmişə insanı yalqız qoyub gedəndir". (Furqan, ayə 27-29)

## Kimlərlə dostluq etməkdən çəkinək?

***1. Bidətçilərdən uzaq olaq.***

İmam Cəfər Sadiq (ə) buyurur: "Bidətçilərlə ünsiyyətdə olub məclislərində iştirak etməyin ki, camaat sizi onlardan biri hesab edər."

***2. Fasiqlərdən uzaq olaq.***

Peyğəmbər (s) buyurur: "Fasiqlərlə ünsiyyətdə olmaq pislik ardınca pislik gətirir."

***3. Yalançı, nadan və əxlaqsızlardan uzaq olaq.***

İmam Əli (ə) bu haqda buyurur: "Müsəlman bu üç (xüsusiyyətə malik olan) şəxslərlə – yalançı, nadan və əxlaqsız adamlarla səmimi (qardaşlıq) münasibətdə olmamalıdır."

İmam Əli (ə): "Fasiq, əxlaqsız, günahkar şəxslərlə yoldaşlıq etməkdən çəkin".

Son olaraq həzrət İmam Baqirin (ə) atası həzrət Əli ibn Hüseynin (ə) kimlərlə dostluq etmək gərəkdiyi haqda buyurduğu rəvayəti diqqətinizə çatdırmaq istərdim.

İmam Baqir (ə) buyurur:

"Atam Əli ibn Hüseyn (ə) bir gün məni yanına çağırıb dedi: Oğlum, beş şəxslə ünsiyyətdə olmamağı sənə tövsiyə edirəm. Onlarla nə həmsöhbət ol, nə də yoldaşlıq et. Atamdan onların kim olduğunu soruşduqda buyurdu:

Yalançılarla həmsöhbət olma. Onların söylədikləri hər bir söz ilğıma bənzəyir. Yaxını sənə uzaq, uzağı isə yaxın göstərər.

Fasiqlərlə də ünsiyyətdə olmaqdan çəkin. Onlar səni bir tikə yeməyə və ya ondan da dəyərsiz bir şeyə satmağa hazır olarlar.

Paxıllardan uzaq olmağa çalış. Çünki bir şeyə ehtiyac duyduğun zaman öz mallarını səndən əsirgəyərlər.

Nadan və cahillərlə də ünsiyyətdə olma. Çünki onlar sənə xeyir vermək istəyərlər, lakin ziyan yetirərlər.

Qohumluq əlaqələrini kəsən şəxslərdən də uzaq olmağa çalış. Çünki Allah-taala onları öz kitabında (Qurani-Kərimdə) lənətləmişdir."

Nəticə olaraq, dostluq və səmimi münasibətlər insanın əxlaq və davranış tərzinə böyük təsir qoyduğu üçün nəql olunmuş rəvayətlərdə bu məsələyə xüsusi diqqət yetirilmişdir. Bu rəvayətlərdə dostların seçilməsində (onların kimliyinin bəlli olmasında) diqqət yetirməyə və ümumi olaraq yalnız "təqva" sahibləri ilə dostluq etməyə tövsiyə olunmuşdur.

İslam fasiq insanların qarşılıqlı ünsiyyətdə mənfi təsir qoyduqlarını və cəmiyyətdə fitnə-fəsad törətdiklərini nəzərə alıb möminlərə onlarla dostluq əlaqələri yaratmağı və səmimi münasibətdə olmağı qətiyyətlə qadağan etmişdir.

**Hacı Qurban**



# Məhəmmədəmin Rəsulzadə və peyğəmbərliyə seçilmə günü

***Böyük Azərbaycan ziyalısı, Məhəmmədəmin Rəsulzadə özünün bir-çox əsərlərində dini və mənəvi dəyərləri təkid edir və xalqımızı dini dəyərlərə sadiq olmağa səsləyir. Belə dəyərli məqalələrdən biri də onun 1906-cı ildə bu gün, rəcəb ayının 27-si, "Məb`əs" bayramı, yəni İslam peyğəmbəri həzrət Məhəmmədin (s) peyğəmbərliyə seçilmə günü ilə əlaqədar "İrşad" qəzetində yazdığı təbrik məqaləsidir.***

Bu məqalədə üç əsas məsələyə toxunulur:

1. Məbəs gününün əhəmiyyəti;
2. İslam Peyğəmbərinin və İslam dininin özəllikləri;
3. Azərbaycan xalqının İslam dini qarşısında vəzifəsi.

Görkəmli ziyalı ilk olaraq qeyd edir ki, bu gün, hicri-qəməri tarixi rəcəb ayının 27-dir. Rəcəb ayı hicri tarixinin yeddinci ayıdır və İslamda məşhur üç ay olan rəcəb, şaban və ramazan aylarının ilkinidir. Rəcəb ayının daxil olması ilə İslamda müqəddəs ibadət ayları daxil olur. İslamda "rəcəbül-mürəccəb" adı ilə məşhur olan bu mübarək ay "Allah ayı" adlanır.

Müəllif ayın tarixini yada salandan sonra bu günün hansı günə təsadüf etməsinə toxunur və qeyd edir ki, bu gün müsəlman aləmində mübarək bir gündür və İslam aləmində ondan gözəl gün təsəvvür etmək çətindir. Çünki bütün islami gözəlliklər və bayramlar bu gündən etibarən yaranmışdır. Əgər bu gün olmasa idi, İslam və onun gətirdiyi bütün gözəlliklər də olmazdı. Deməк, M. Rəsulzadə çox haqlı olaraq qeyd edir ki, "aləmi-islamiyyətdə ondan artıq, ondan müqəddəs, ondan əziz" gün yoxdur.

Bu məqalədə diqqətimi cəlb edən bir məsələ bundan ibarətdir ki, müəllif fövqəlməzhəb baxışı ilə çıxış edir, yəni, bu günü məzhəbindən asılı olmayaraq bütün müsəlmanlara aid edir bu da zənnimcə dolayısı yolla İslam qardaşlığını təkid məqsədi daşıyır və müsəlmanlara xırdalıqları və fərqlilikləri kənara qoyaraq, ümumi prinsiplər ətrafında birləşmə istiqamətində əldə rəhbər tuta biləcəkləri daha bir mövzu göstərir. Buna görə də "aləmi-sünni" və "aləmi-şiə" yox, tez-tez "aləmi-islamiyyət" sözünə müraciət edir.

Sonra qeyd edir ki, bu günü əziz edən iki cəhət var. Biri kamil insan olan bizim Peyğəmbərimizin peyğəmbərliyə seçilməsi, ikincisi isə, onun gətirdiyi kamil din səbəbilə müsəlmanların cəhalət zülmətindən, nadanlıqdan aydınlığa, işığa çıxmalarıdır: "...onun üçün ki, bu gündə əqli-küll (ən kamil ağıl sahibi) olan nəbiyyi-möhtərəmimizin (hörmətli Peyğəmbərimizin) yövmi-cülusi (Peyğəmbərliyə seçilməsi günü) olub, cümlə müsəlmanların zəlam (zülmət) və heyrət (çaşqınlıq) vadisindən xilas olaraq, nuraniyyət və mərifət bağçasına keçdikləri gündür."

Sonra bir daha dəyərli Məbəs gününün və İslamın yaranma amilinin özəlliklərini sadalayır. Qeyd edir ki, belə bir dəyərli gündə vəhşi, qaniçən, işi-gücü qətl-qarət və eyş-işrət olan ərəblərə Allahın mərhəməti enir və Məhəmməd ibn Abdullah əleyhissəlam həzrətlərinin səbəbilə onların üzünə parlaq səhifələr açılır, onlar cəhalət vadisindən, nadanlıqdan elm və mərifət işığına yönəlirlər.

İslam ilk olaraq Ərəbistan yarımadasına gəlsə də, o bütün bəşəriyyət üçün yaranıb. Buna görə də M. Rəsulzadə İslamın ərəblərə bəxş etdiyi başucalığını qeyd etdikdən sonra yazır ki, bu gün: "...haman gündür ki, bunda cəhalət və səfalət ucundan illər müddəti ilə gizlin olub, təcəlli etməkdən məhrum qalan nuri-həqqaniyyət (həqiqət nuru) cilvələnib, zülmətpərəst olan xəffaş təbilərə (yarasa təbiətlilərə) dünyanı daraltdı." İslam gəlib ki, insanların öz əlləri ilə

boyunlarına saldıqları nadanlıq boyunduruqlarını açsın, onları müstəbidlərin və dünyanın qapqara zülmət içində, həqiqət günəşinin işığına məhrum qalmısını istəyənlərin başına saxta dünyalarını dar etsin, Allahın azad yaratdığı bəndələrini onların köləliyindən nicat versin.

Məhəmmədəmin Rəsulzadə sonra İslam dininin əsasının "la ilahə illallah", yəni, Allahdan başqa pərəstişə layiq məbud yoxdur— olmasını yazır ki, bu da insanların nadanlıq ucbatından uydurduqları bütpərəstliklə daban-dabana zidd idi. Buna görə də həqiqət günəşinin parlaması ilə: "...cəhaləti-məhz və küfran olan bütpərəstlik fəsxinə (məhv edilməsinə) hökmü-ilahi (ilahi hökm) sadir oldu."

Rəsulzadə cənabları bu gündə ərsəyə gəlmiş müqəddəs İslamı ümumbəşəri bir din sayır, deyir ki, bu din malik olduğu gözəlliklər səbəbilə bütün insanlar və insanlıq üçün önəmlidir: "İslamiyyət nöqteyi-nəzərindən bu günün nə qədər heysiyyəti varsa, insaniyyət nöqteyi-nəzərindən də bir o qədər var və bəlkə daha da artıqdır."

Müəllif qeyd edir ki, İslam dinini və onun ardıcıllarında qoyduğu müsbət təsirləri kimsə inkar edə bilməz, çünki həqiqət ortadadır. İstəyən ərəblərin və İslama inanmış digər xalqlardan olan müsəlmanların İslamdan əvvəlki və İslamdan sonrakı tarixini vərəqləsin. Tarix şahiddir ki, İslam dini, nəinki müsəlmanların, hətta bəzən bu dinə qəzəblə yanaşan yəhudilik və məsihiliyin də inkişafına səbəb olmuşdur. Qəribədir ki, bəzi xristian araşdırmaçıları İslamın xristianlığın mövcudiyyətini qoruyub saxlamasını qeyd edirlər. Çünki İslamın ana kitabı olan Qurani-kərimdə və hədislərdə xristianlıqla bağlı çoxlu sayda ayələr və hədislər var.

Sonra M. Rəsulzadə bir daha bu günün əhəmiyyətini yada salır: "Bu gün aləmi-insaniyyətdə öylə bir müəzzəm günlərdəndir ki, onun misli tarixlərdə az-az tapılar, bəlkə də heç tapılmaz." Və yenə də fikrini əsaslandırmaq üçün tarixi həqiqətləri oxucunun yadına salır və onu İslamdan əvvəlki dünya ilə, ondan sonrakı dünyanı müqayisə etməyini istəyir. Göstərir ki, bu din: "Başdan-ayağa qərqi-istibdad və cəhalət (istibdad və cəhalətə qərq) olub güzəranlarını qətl və qarət ilə keçirdən, təəssüb ucundan öz doğma balasını diri-diri yerə basdıran bədəvi ərəblər"i islah edə bilmişsə, onun çox böyük qüdrəti və ilahi mənşəyi var. Buna görə də : "...dini-islam (İslam dini) kimi insaniyyətpərvər, ədalət və musavatgüstər (bərabərliyi yayan), maarif və həqaniyyətamiz bir məslək" hər cür sitayişə layiqdir. Belə bir dinin rəhbəri isə Allahın insanlığa bəxş etdiyi "nadir vücud"dur.

Demək biz müsəlmanlar kamil ağıl və idrak sahibi, "nadir vücud", (bu gündə oxunan duada qeyd edilən) "təcəlliyi-ə`zəm"— Allahın böyük cilvəsi olan həzrət Məhəmmədin gətirdiyi bəşəriyyəti zülmətlərdən aydınlığa, istibdaddan, zülmdən, ədalət və musavata dəvət edən bir dinə sahibik. Biz belə bir nemətə şükür etmişikmi, edirikmi? Biz İslam təlimlərindən düzgün bəhrələnmişikmi?

"Lakin, heyhat! O gündən başlanıb, təbliğ edilən o əmr və nəhyi-müqəddəsini (müqəddəs əmr və qadağalarını) yadımızdan çıxartdığımız kimi, bu yövmi-müqəddəs və müəzzəzi də fəramuş etmişiz! (unutmuşuq)"

Biz, Rəsulzadə cənablarının qeyd etdiyi kimi, İslama aid olan hər şeyi, hətta belə bir günün varlığını belə unutmuşuq. Məbəs günü ilə bağlı hansı müsəlman ziyalılarına sual versək, əksəriyyət cavab verə bilməyəcək. Biz ya müsəlmanıq, ya da müsəlman deyilik. Əgər müsəlmanıqsa, dinimizin təlimləri ilə tanış olmaq, onun tarixini, əqidə prinsiplərini, şəriət və əxlaq məsələlərini bilməliyik. Təəssüf ki, biz bizə özümüzə aid olan heç nə yaramır. Böyük şairimiz necə də yanğı ilə yazmışdı: "İtin də dilinə hörmətimiz var, təkcə öz dilimiz yaramır bizə". Mən də ondan ilham alaraq deyirəm:

***Hər kəsin dininə hörmətimiz var,***
***Təkcə öz dinimiz yaramır bizə.***

"Adımızı müsəlman qoyuruz, lakin islamiyyətin nə tarixindən, nə üsulundan, nə füruindən (hüquq və şəriətindən) və nə də mühəssənatından (İslam əxlaqı və gözəlliklərindən) xəbərimiz yoxdur." Bizə müsəlman demək olarmı?! İslamdan xəbəri olmayan müsəlmanın təkcə adı müsəlmandır. Millət vəkilləri, dövlət işçiləri milli konstitusiyanı dəfələrlə vərəqlədikləri halda, bir dəfə də olsun dilimizə müxtəlif tərcümələri olan dinimizin ana kitabı Qurani-kərimi vərəqləməyiblər. Xristian yazıçıları öz əsərlərində, filmlərində dəfələrlə müqəddəs İncilə (Bibliya) müraciət edirlər, lakin müsəlman ziyalıları və kinorejissorları Allah tərəfindən nazil olmasına zərrəcə şübhə olmayan Qurani-kərimə söykənməkdən utanırlar, bəzən özlərinə sığışdırmırlar. Hər bir millət öz kökü üstündə qol-budaq atır. Bizim sələflərimiz bizim kimi olmayıblar. Rəsulzadələr, hadilər, sabirlər, cavidlər, şirvanilər və başqaları, hamılıqla dinimizə öz sevgilərini ibraz ediblər və dinə inanmağı, ona uymağı özlərinə ar bilməyiblər. Onlar öz əsərlərində dini yox, dindən uzaq xurafatçı müsəlmanı tənqid ediblər. Onların

əsərləri islami və mənəvi həqiqətlərlə doludur. İslamdan və ərəb-fars dilindən bir az xəbəri olanlar bunu yaxşı bilirlər.

Sonra da dinimizi tanımadığımız halda yadların anti-din təbliğatlarına uyaraq özümüzə xor baxırıq. Bir halda ki, insan azadlığının ən gözəl təminatçısı, insanı guşənişinlikdən çəkindirərək onu sosiallaşmağa, elmə və inkişafa çağıran, onu zülmdən uzaq olmağa səsləyən İslamdır: "İslamiyyət, hürriyyəti-məhz olub, hər bir əsası ictimaiyyət üzrə bina olunduğu bir zamanda (halda), biz istibdadpərəst oluruz. Quran bizə "və şavirhum fi-l-əmri" (İşdə onlarla məsləhətləş) buyurduqda, biz üsuli-keyfə ma yəşau (necə oldu-oldu prinsipi) dalınca gedirik. Cəmi taifələr dinimizin üsullarından olan hürriyyət və ittihadi-beynəlmiləli (beynəlxalq qardaşlıq) ararkən, bizlər istibdad və nifaqı axtarırıq."

Buna görə də müsəlmanların İslamdan uzaq davranışlarını əsas götürüb dini baltalamaq istəyənlər yanlışlığa yol verirlər. Hər şeydən öncə baxmaq lazımdır ki, müsəlmanların davranışlarını İslam təsdiq edirmi, İslamda belə şeylər varmı?

***NƏ ETMƏLİ?***

***"Müsəlmanlar! Bəsdir, bu qədər özümüzdən bixəbər qaldığımız! Bəsdir, dinimizə olan kəmetinalığımız. Dinimizə deyirəm, dinimizə, o dinə ki, onun cümlə üsulu və ərkani (əsasları) ictimaiyyət, məhz və məhz ictimaiyyətdir."***

***Axırda görkəmli ictimai xadim M. Rəsulzadə çox gözəl bir təklif edir ki, mən də həmin təklifə qoşulur və müsəlmanları Rəsulzadənin arzusunu gerçəkləşdirməyə çağırıram:***

***"Hər bir müsəlman gərək bu gündə tətili-əşğal (işləməyi tərk) edib, istər islamiyyət, istər insaniyyət naminə bayram eləsin!"***

***"...İrşad qəzeti heyəti-təhririyyəsi (redaksiya heyəti) tərəfindən cümlə qareini-kiramini (əziz oxucuları) bu yövmi-məsud (xoşbəxt gün münasibəti) ilə səmimi qəlbdən təbrik edib, xətmi-kəlam edirəm." İrşad, № 208, 4 sentyabr 1906.***

**Dilman Şahmərdanlı**

# GÜNAHIN MƏNƏVİ TƏSİRLƏRİ

***Yaxşı işlərlə və ibadətlə çoxlu məşğul olmaq, insanın ruhunu və qəlbini saflaşdırır.***

***Günahı təkrar etmək insanın qəlbini qaraldır, onu insani xislətlərdən çıxarıb heyvani xüsusiyyətlərə malik edir və başqa böyük günahlara zəmin yaradır. Misal üçün: birinci dəfə şərab içən şəxs müsəlman olduğu üçün çox çətinlik çəkir. İkinci dəfə isə bu iş onun üçün bir az asanlaşır. Amma bu işi çox təkrar etdikdən sonra şərab içmək onun üçün su içməkdən də asan olur. Deməli, günahı təkrar etmək, hətta böyük günahları da insan üçün asanlaşdırır.***

*«Nəhl» surəsinin 108-ci ayəsində oxuyuruq:*

*«Onlardır (Kafirlərdir) ürəyinə, qulaqlarına, gözlərinə Allahın (qıfıl) vurduğu kəslər. Məhz onlardır qəflətdə olanlar».*

*«Səff» surəsinin 5-ci ayəsində oxuyuruq:*

*«Onlar haqq yolundan münhərif olan zaman, Allah da onların qəlbini dəyişdirdi».*

*«Rum» surəsinin 10-cu ayəsində oxuyuruq:*

*«Pis işlər görən şəxslərin əməli o yerə çatdı ki, Allahın (göndərdiyi) ayələri təkzib etdilər və onu məsxərəyə qoydular».*

*Bəzi zalım şəxslərin çoxlu günah və zülm etməsi nəticəsində, haqqı inkar edib kafir olması hallarına tarixdə çox rast gəlinibdir. Bunların hamısı günahın təsiri nəticəsində baş verən hadisələrdir. Əksi isə belədir: yaxşı işlərlə və ibadətlə çoxlu məşğul olmaq, insanın ruhunu və qəlbini saflaşdırır. Bu barədə bir neçə hədisə diqqət yetirək:*

*İmam Sadiq (ə) buyurur:*

*«Günahdan çox insanın qəlbini fasid (xarab) edən bir şey yoxdur. Qəlb günah edir. O günahı təkrar edir. Nəticədə alt-üst olur».*

*İmam Kazim (ə) buyurur:*

*«İnsan günah edən zaman onun qəlbində qara bir nöqtə yaranır. Bu günaha görə tövbə etməsə və etdiyi günahlarını artırsa, o qara nöqtə də böyüyüb ləkəyə çevrilir. Belə ki, axırda onun bütün qəlbi qaralır. Bundan sonra isə o daha səadətə yetişmir.»*

*İmam Əli (ə) buyurur:*

*«Təkcə qəlbin bərkliyi nəticəsində gözlərin yaşı quruyur. Qəlbin bərkliyi isə çoxlu günahların təsiri nəticəsindədir»*

*Ümumiyyətlə, insanın başına gələn bütün mənəvi və cismi bəlalar, günahlardan qidalanır.*

*İmam Baqir (ə) buyurur:*

*«Bəndəyə yalnız günahdan ötrü narahatlıq və bəla yetişər».*

# İSLAM və DİNİ PLÜRALİZM

***Artıq yarım əsrdən çoxdur ki, dini plüralizm mütəfəkkirlər və teoloqlar arasında müzakirə obyektinə çevrilib. Bir sıra mütəfəkkirlərin fikrincə, yeganə haqq din (dini eksklusivizm) yoxdur, əksinə bütün dinlər insanları Allaha, səadətə qovuşdura bilər. Dini plüralizmin banisi Con Hik bu nəzəriyyəsini daha çox xristianlıq dünyagörüşü əsasında irəli sürsə də, müsəlman mütəfəkkirləri, məsələn, Əbdülkərim Suruş iddiasını Qurani-kərim, hədislər və daha çox Cəmaləddin Ruminin baxışı əsasında izah etməyə çalışır.***

Maraqlıdır ki, C. Hik də Rumidən sitat gətirir və hətta onu plüralizmin ilk nəzəriyyəçisi hesab edir. Qeyd etmək yerinə düşərdi ki, dini plüralizm və eksklusivizmdən əlavə dini əhatəlilik - inklusivizm nəzəriyyəsi də diqqətdə saxlanılır. Bu nəzəriyyəyə görə yeganə haqq dinin olmasına baxmayaraq, Allahın mərhəməti, məsələn, İsanın qurban verilməsinə görə, digər din ardıcıllarına da aid ola bilər. Hazırda xristianlıqda bu nəzəriyyənin tərəfdarları daha çoxdur. Demək olar ki, İslam dinində də müəyyən şərtlər çərçivəsində dini inklusivizmi qəbul etmək olar. Amma əgər xristianlıqda dini əhatəlilik daha çox İsanın qurban verilməsi ilə izah edilirsə, İslam dinində isə bu, bəlli səbəblər üzündən dini təlimlərin fərdlərə çatmaması və ya onların bunları düzgün qavraya bilməməsi ilə izah edilə bilər. Əsas mövzuya - Quran və dini plüralizmə toxunmazdan öncə Qurani-kərimin digər dinlərə münasibəti haqqında bəzi ayələri nəzərdən keçirmək yerinə düşərdi:

**a) Dinlərarası vəhdət**

İslam dini özünü sonuncu din olaraq təqdim etməklə yanaşı digər dinlərlə də sayğı ilə davranmağı tövsiyə edir və eyni zamanda dinlərarası mövcud müştərək prinsipləri əsas tutaraq onları vəhdətə çağırır: "(Ya Rəsulum!) Söylə: "Ey kitab əhli, sizinlə bizim aramızda eyni olan (fərqi olmayan) bir kəlməyə tərəf gəlin! ( O kəlmə budur: ) "Allahdan başqasına ibadət etməyək. Ona şərik qoşmayaq və Allahı qoyub bir-birimizi (özümüzə) Rəbb qəbul etməyək!" Əgər onlar yenə də üz döndərərlərsə, o zaman (onlara) deyin: "İndi şahid olun ki, biz, həqiqətən, müsəlmanlarıq (Allaha təslim olanlarıq)!" (3: 64)

**b) Etik davranış tərzi**

Dinlərarası dialoq, münasibətlər ən yaxşı tərzdə və tolerantlıq əsasında tənzimlənməlidir: "Kitab əhlinin zülm edənləri istisna olmaqla, onlarla ən gözəl tərzdə mücadilə edin! Və (onlarla söhbət etdikdə) belə deyin: "Biz həm özümüzə nazil olana (Qurana), həm də sizə nazil olana (Tövrata və İncilə) inanırıq. Bizim də Allahımız, sizin də Allahınız birdir. Biz yalnız ona təslim olanlarıq!""(29: 46)

**c) Sülh və ədalətin bərpası**

Dinlər arasında həmişə sülh və ədalət hakim olmalıdır: "Allah din yolunda sizinlə vuruşmayan və sizi yurdunuzdan çıxartmayan kimsələrə yaxşılıq etməyi və onlarla ədalətlə davranmağı sizə qadağan etməz. Allah ədalətli olanları sevər!"(60: 8); "Əgər onlar sülhə (barışığa) meyl etsələr, sən də sülhə meyl et və Allaha bel bağla. Həqiqətən, O (Allah hamınızın sözlərini) eşidəndir, (niyyətlərinizi) biləndir!"

**ç) Etik davranışda monoteist və politeist dinlər arasında fərq qoyulmur.** Qurani-kərim nəinki monoteist dinlərə, hətta politeist dini etqiadlara belə sayğı göstərməyi zəruri hesab edir: "Allahdan başqalarına tapınanları söyməyin. Yoxsa onlar da bilmədikləri üzündən Allahı düşməncəsinə söyərlər. Beləcə, hər bir ümmətə öz əməllərini gözəl göstərdik. Sonra onlar Rəbbinin hüzuruna qayıdacaqlar. (Allah isə) onlara etdikləri əməllər barəsində xəbər verəcəkdir!" (6: 108)

**İslam və dini plüralizm**

Yuxarıda da qeyd etdiyim kimi, dini plüralizmi dəstəkləyən müsəlman alimləri daha çox C. Ruminin baxışlarından təsirləniblər. Və elə buna görə də Ə. Suruşun "Sirathaye müstəqim" ("Doğru yollar") kitabı "Məsnəvi"dən gətirilən sitatlarla zəngindir. Amma bu, aydın məsələdir ki, Ruminin bu aspektdən çıxış

etməsini qəbul etsək belə, onun fikrini ümumiləşdirib, din adına təqdim etmək səhv olardı. Digər tərəfdən, hansısa bir mövzuya dair dini qaynaqlara müraciət edərkən, ayə və hədislər pərakəndə halda deyil, sistemli şəkildə araşdırılmalıdır. Çünki bəzi ayələri ayrı-ayrılıqda nəzərdə tutduqda, bəlkə də bizə yarıyan bir təsəvvür formalaşa bilər. Lakin bu müqəddəs kitabın ayələrinə kompleks yanaşdıqda, əks nəticə də hasil ola bilər. Necə ki, belə səhv yanaşmalar bir sıra əsaslı mövzularda (məsələn, Allahın cisim olub-olmaması) mütəkəllim və müfəssirlər arasında ciddi fikir ayrılıqlarına səbəb olub. Plüralizm mövzusunda da eyni metodu tətbiq etmək yeni bir səhv nəticənin meydana gəlməsi deməkdir.

Əslində, Qurani-kərimdə uyğun mövzuya aid ayələri digər ayələrlə tutuşdurduqda, aydın olur ki, bu təsdiqedici fikirlər bütün zamanlar üçün yox, bəlli bir dövr üçün nəzərdə tutulub. Sanki bu dövr yeni dinin gəlişi ilə tamamlanır və əvvəlki dinin ardıcılları daha mükəmməl bir dinə dəvət edilir. Necə ki, hz. Adəmdən (ə) üzü bəri həmişə sonrakı din qabaqkı dinə nisbətdə daha geniş və əhatəli olub. Çünki zaman və şərait dəyişdikcə, insanların təfəkkür tərzi inkişaf etdikcə səmavi din hökm və göstərişlərini daha geniş formada bəyan edir. Buna əsasən, sonuncu din İslam olduğundan (33: 40) əvvəlki dinlərə nisbətdə daha mükəmməl (5:3) və əhatəli sayılır. Dini mükəmməllik dedikdə, sözügedən dinin həyatın bütün sahə və mərhələlərində öz göstərişlərini daha dolğun şəkildə bəyan etməsi nəzərdə tutulur.

Amma sanki plüralizm tərəfdarları bunu nəzərə almırlar. Onlar adətən dinlərin ümumi mahiyyətini, məsələn, bütün səmavi dinlərin üç təməl prinsipinin (təkallahlıq, peyğəmərlik və axirət həyatı) müştərək olması və ya insanları düzlüyə, ədalətə, xeyirxahlığa və s. dəvət etməsini əsas tutub, belə bir qənaətə gəlirlər. Həm də Con Hikin plüralizm baxşının kökündə elə bil bir hümanistlik, xeyirxahlıq da yer alır. Sanki o, bu nəzəriyyəsi ilə dinlər arasında mövcud olan ədavətlərin qarşısını almağa çalışır. Bu baxış həddindən artıq təqdirəlayiq olsa da, elmi deyil, əsil həqiqəti əks etdirmir. Buna görə ki, belə ciddi məsələlərdə subyektiv yanaşmadan əlavə dinlərin öz yanaşması, Allahın gerçək istəyi öyrənilməlidir. Digər tərəfdən, hətta səmavi dinlərin təməl prinsiplərində belə ciddi fərqli (üç üqnüm və s.) yanaşmalar müşahidə edirik. Və bu, heç də kiçik məsələ deyil.

Bundan əlavə, əgər səmavi dinlər arasında plüralizmi izah etmək bu qədər çətindirsə, qeyri-səmavi dinlərdə qeyri-mümkün məsələyə çevriləcək. Həmçinin, bütün dinlər öz ardıcıllarını düzlüyə, ədalətə, xeyirxahlığa və s. əxlaqi-mənəvi dəyərlərə dəvət etsələr də, kompleks şəkildə müqayisə apardıqda, istər əxlaqi-mənəvi, istər ictimai, iqtisadi, siyasi, ailə və s. mövzulara dair irəli sürülən konsepsiyalarda köklü fərqlər qabarıq şəkildə özünü göstərir. Habelə, başqa dinlərin müqəddəs kitablarına müəyyən çoxaltma və azaltmaların olması da müzakirə mövzusudur. İslam dinində isə Qurani-kərimin təhrifə məruz qalmaması önə çəkilir. Həm buna dəlalət edən ayələr (15:9) mövcuddur, həm də bu, sonuncu din üçün bir zərurət kimi qəbul edilir.

Məntiqə görə, hər kəs ən kamil və təhrif olunmamış dinə, müqəddəs kitaba əməl etməlidir. Elə buna görədir ki, Allah Qurani-kərimdə əhli-kitabı İslam dinini qəbul etməyə çağırır və onların hidayətini bunda görür: “(Ya Rəsulum!) Əgər onlar (yəhudi və xaçpərəstlər) səninlə mübahisə edərlərsə, belə de: “Mən özümü ardımca gələnlərlə birlikdə Allaha təslim etmişəm”. Kitab verilmiş şəxslərə və savadsızlara de: “Siz də təslim (müsəlman) oldunuzmu?” Əgər təslim olarlarsa (islamı qəbul edərlərsə), doğru yola yönəlmiş olarlar, yox, əgər üz döndərərlərsə, (sənə bir zərər gəlməz), sənin vəzifən ancaq (haqqı) təbliğ etməkdir. Allah, şübhəsiz ki, bəndələrini görəndir!” (3: 20) Yaxud “Bəqərə” surəsində oxuyuruq: “(Ya Rəsulum!) Sən yəhudi və xaçpərəstlərin millətlərinə (dinlərinə) tabe olmayınca onlar səndən qətiyyən razı qalmayacaqdır. (Onlara) de: “Düzgün yol yalnız Allahın göstərdiyi yoldur!” Əgər sənə gələn elmdən (vəhydən) sonra onların (nəfslərindən gələn) istəklərinə uysan, o zaman səni Allahdan (Allahın əzabından) qoruyacaq nə bir dost, nə də bir köməkçi tapılar”. (2: 120) Bütün bunları nəzərə aldıqda aydın olur ki, Quran dini plüralizmə baxışı müsbət deyil. Əks təqdirdə onları İslam dinini (5: 3 və 3: 20-də məhz hz. Məhəmmədə (s) nazil olan İslam dini nəzərdə tutulur, bütün səmavi dinlər üçün nəzərdə tutulan ümumi ad (islam) yox.) qəbul etməyə dəvət etməzdi. Buna görə də zahirən plüralizmi aşılayan ayələr (5: 69; 5: 48 və s). gəldiyimiz qənaətə uyğun təfsir və izah edilməlidir.

**Bir zəruri qeyd və dinlərarası dialoq**

Bildiyimiz kimi, artıq çağımızda dinlərarası dialoq böyük önəm kəsb edən məsələlərdən biridir. Dünyamızın sülh, əminamanlıq içərisində yaşaması, dinindən asılı olmayaraq insanların bir-birinə sayğı göstərməsi, dinlərarası mövcud qaranlıq məqamların aydınlaşması üçün dialoq zərurəti yaranır. Amma şübhəsiz ki, “haqq din”, “batil din” yanaşması ilə buna nail olmaq mümkün deyil. Necə ki, batil, nahaqq hesab edilən bir dinin ardıcılından səmimi, xoşniyyətli münasibət gözləmək əbəsdir. Bu baxımdan “daha mükəmməl din” anlayışı aktual olmalı, hər bir dinin mənsubları digərlərini səmərəsiz mövzularla ittiham etmək əvəzinə, tam elmi qaydada öz dini müddəalarının ən mükəmməl olmasını izah etməyə çalışmalıdırlar. Çünki dini prinsiplərə görə, etiqadi məsələlər zor gücünə, hədələrlə başqalarına aşılana bilməz. Hər bir dini prinsip tam dolğun izah edilərək təqdim edilməli, onların ən yaxşısını qəbul etmək isə fərdlərin öhdəsinə qoyulmalıdır.

**Niyam Aqil**

# Qeyri-müsəlmanların Axirət dünyası



***Bütün müsəlman alimləri yekdilliklə islam dinindən öncə gəlmiş ilahi dinləri qəbul edir və zəmanələrinin dini göstərişlərinə əməl edən insanları cənnət əhli sayırlar. İslamın gəlişindən sonra isə artıq keçmiş dinlər, keçmiş qanunlar kimi kənara qoyulmalı, yeni və eyni zamanda son din olan islam şəriətinə əməl olunmalıdır. İslamın haqq din olduğunu bilə-bilə ona iman gətirməyənlər isə cəhənnəm əhli sayılırlar. Necə ki, Qurani-kərim buyurur: "Kafirlərə gəldikdə, onlara dünyada və axirətdə şiddətli əzab verəcəyəm. Onların heç bir köməkçisi olmayacaqdır!". (Ali-İmran, 56) Hətta uca Allah belə şəxslərin öz dinlərində qalıb, ona əməl edəcəklərinin faydasız olduğunu vurğulamışdır: "Kim islamdan başqa bir din ardınca gedərsə, (dini və ibadətləri) heç vaxt ondan qəbul olunmaz və o, axirətdə zərər çəkənlərdən olacaq!".***

***(Ali-İmran, 85)***

Sözsüz ki, qeyri - müsəlman bir şəxsin islamın haqq din olduğunu öyrənməsi üçün ilk növbədə onun haqqında araşdırma aparması lazımdır. Amma nəzərə alsaq ki, dinlər arası tədqiqat hər kəsin bacaracağı bir iş deyil, bu zaman məsələ bir az mürəkkəbləşir. Çünki hər kəs hər bir zaman həqiqəti və gerçəkliyi görə bilmir. Xüsusilə də insanlar adətən öz ata-babalarının dinlərində qalır və başqa dinlər haqqında araşdırmaq, onların maraq çərçivəsində belə olmur. Belə olan halda onların axirət dünyası haqqında fikir yürütmək, islamı bilərəkdən qəbul etməyən şəxslərin qətiyyətlə Tanrı əzabına düçar olacaqları barədə danışmaq qədər asan olmur. Şübhəsiz, bu məsələni çözmək üçün ilk növbədə unutmamalıyıq ki, Allah-taala insanlara eyni dərəcədə və eyni ölçüdə nemət bəxş etməmişdir. Birini gözəl birini çirkin, birini sağlam birini xəstə, hətta birini varlı və birini kasıb ailədə dünyaya gətirmişdir. Əlbəttə, Allah-taala adil olduğundan qiyamət günü insanlarla onlara verdiyi nemətlər əsasında sorğu-sual edəcək. Xəstə və kasıb şəxsdən "nəyə görə həccə getmədin?" deyə soruşmayacaq. Çünki ona ağır və çətin səfər olan həcc ziyarəti üçün sağlam bədən və sərvət əta etməmişdir. Allahın ən dəyərli nemətlərindən biri də, bir insanın müsəlman ailəsində dünyaya gəlməsi və müsəlman ölkəsində böyüməsidir. Bu nemət hər kəsə nəsib olmadığına görə, insanların islam dininin qarşısında olan məsuliyyətləri də fərqlənir. Allah-taala nə qədər ki, islamın həqiqət üzünü, onun kamil bir ilahi din olduğunu öz bəndəsinə göstərməmişdir, o haqda həmin bəndəsindən heç bir sual soruşmayacaq, islama iman gətirmədiyi üçün öz bəndəsini cəzalandırmayacaq. Bu tezis, birmənalı olaraq Quranın öz məntiqinə əsaslanır. Qurani-kərimdə oxuyuruq: "Biz peyğəmbərləri (möminlərə) müjdə gətirən və (kafirləri) əzabla qorxudan olaraq göndərdik ki, daha insanlar üçün dəlillərdən sonra Allaha qarşı bir bəhanə yeri qalmasın." (Nisa, 165) Quranın bu məntiqinə əsasən, əgər bəndənin Allaha qarşı bir bəhanə yeri qalmışsa, o zaman onun üzrü və bəhanəsi qəbul olunacaq. Təsəvvür edin ki, Avropada böyümüş heç bir islam dini haqqında düzgün məlumatı olmayan, hətta bəzi hallarda islam düşmənlərinin antitəbliğat xarakterli informasiysı nəticəsində islama qarşı bədbin olan bir insandan Allah-taala qiyamət günü "nəyə görə islam dininə iman gətirmədin?" deyə soruşarsa, nə qədər məntiqə uyğun olar? Axı bu iş onun potensiyalından və düşüncə çərçivəsindən kənar idi. Hələ Afrika çöllərində yaşayan, sivilizasiyadan uzaq, hətta

dünyada hakim olan mövcud dinlərin adını belə eşitməyən şəxslərin çarəsiz hallarını demirəm! Mehriban Allah da öz buyurduğuna görə insanları heç zaman öz istedadlarından artıq bir şeyə məcbur etməz. Qurani-kərimdə oxuyuruq: “Allah heç kəsi bacaracağından (istedadından) artıq bir işə mükəlləf etmir”. (Talaq,7)

Deməli, müsəlman mühitində yaşamadığına görə, islamın həqiqətindən və gözəlliyindən xəbərsiz olan insanları axirət günü müsəlman olmadıqları üçün cəza gözləmir. Bu çarəsiz insanların mühakiməsi onların ağlı və vicdanı əsasında həyata keçəcək. Hədislərimizə görə, “ağıl” insanın batini peyğəmbəridir. Bu peyğəmbər nəfsanı istəklərin və yersiz təəssübkeşliyin vasitəsi ilə zəncirlənməsə, insanı harada olursa olsun haqqa doğru çəkib aparacaq. Mötəbər kitablardan olan “Üsuli-kafi”nin, “əql və cəhl” fəslində belə rəvayət olunur: “Bir şəxs beşinci imamdan soruşdu: Ağıl nədir? İmam cavabında buyurdu: Elə bir şeydir ki, onun vasitəsilə Allaha pərəstiş olunur və behişt qazanılır”. Nəticə etibarı ilə, ağıl hər kəsə verildiyi üçün ondan düzgün istifadə olunarsa, Allahı tapmaq, Ona tapınmaq və behişti qazanmaq mümkün olacaq. Şübhəsiz, insanların ağlı, onların fiziki gücləri kimi bir-birlərindən fərqli olduğu üçün, onlar eyni şəkildə mühakimə olunmayacaq. Bu barədə Məhəmməd peyğəmər (s) belə buyurmuşdu: “Allah-təala qiyamət günü insanları, onlara verdiyi ağıla əsasən sorğuya çəkəcək”.(Üsuli-kafi, əql və cəhl).

Əxlaqi məsələlərə gəldikdə isə, insanlar bu məsələləri düşünməkdə bir-birləri ilə əqli cəhətdən o qədər də fərqlənmirlər. Hər bir insan dinindən və irqindən fərqli olmayaraq öz ağıl və vicdanı ilə xeyir və şərrin, pis və yaxşının nə olduğunu tanıyır. Həmçinin, hər vicdanlı şəxs yaxşı iş görməyin düzgün və pis iş görməyin səhv olduğunu bilir. Məsələn, ədalətli və insaflı olmaq, başqalarının haqqını yeməmək, doğru danışmaq, vəfalı və sədaqətli olmaq, valideynə və müəllimə hörmət, uşaqlara və qocalara qayğı, insanlarla yaxşı və mehriban davranmaq, bacardıqca cəmiyyətin rifahı üçün maddi və mənəvi xidmət, kimsəsizlərə və yetimlərə kömək və bu kimi mənəvi keyfiyyətlər heç bir dinə mənsub olmayan insanların da düşündükləri və qəbul etdikləri əxlaqi normalardır. Elə islam dininin də özəyi və önəmli istəyi əxlaqdır. Belə olduqda, qiyamət günü qeyri müsəlmanlar öz ağıl və vicdanı ilə qəbul etdikləri bu əxlaqi keyfiyyətlərə görə cavab verməli olacaqlar. Əgər onlar öz həyatlarını əxlaq və mənəviyyat üzərində qurmayıblarsa, heç bir zaman cənnətə daxil olmaz, hətta etdikləri pis əməllərə görə cəhənnəm odunda yanmalı olacaqlar. Əks təqdirdə, heç bir maddi mənfəət güdmədən gözəl əxlaqa yalnız gözəl olduğu üçün əməl edənlər, ömürlərini riyasızlıqla paklıq uğrunda, mənəviyyat və insaniyyət yolunda həsr etmiş şəxslər isə, Allahın ədalətinə və Onun sonsuz mərhəmətinə görə labüddür ki, cənnət əhli olsunlar. Əslində xeyirxah və pak insanlar zahirdə müsəlman olmasalar da, əməldə müsəlman sayılırlar. Unutmayaq ki, “Allah yaxşılıq edənləri sevir”. (Ali-İmran, 134)




Əlbəttə, artıq modern dünyada hər bir şey haqqında məlumat toplamaq asanlaşıb. Nəzərə alsaq ki, Allah-taala hər kəsin batinində həqiqət axtarması üçün bir maraq hissi qoymuşdur və islamın həqiqətini və gözəlliklərini görmək də çətin bir şey deyil, bu potensiyal yaşadığımız dövürdəki qeyri müsəlmanların məsuliyyətini bir az artırır. Əgər bugünün imkanları ilə onlar doğrudan da yenə islamın həqiqətini görməyə qabiliyyətləri olmasa, yuxarıda dediyim çarəsiz insanların qrupuna aid olunurlar. Allah da çarəsiz insanları bilərəkdən kafir qalan insanlardan istisna edib, onların haqqında belə buyurmuşdur: “Kafirlərin sığınacaqları yer cəhənnəmdir. O necə də pis yerdir! Yalnız hicrət etməyə (haqqa tapınmağa) yol və çarə tapa bilməyən aciz kişi, qadın və uşaqlar müstəsnadır. Ola bilsin ki, Allah onları əfv etsin. Allah əfv edəndir, bağışlayandır!”. (Nisa, 97-98)

**Dr. Hacı Tofiq Əsədov**

# ŞƏHİD MÜTƏHHƏRİYƏ GÖRƏ SÖZ VƏ DÜŞÜNCƏ AZADLIĞI

***Öncə azadlıq, düşüncə anlayışlarını və bu iki anlayışın insan fitrəti ilə münasibətini qısaca incələyəcək, davamında isə söz və düşüncə azadlığını Şəhid Mütəhhərinin fikirləri əsasında öyrənəcəyik.***

## Azadlıq və onun qisimləri

"İnkişaf, tərəqqi yolunu keçmək istəyən hər bir canlı varlığın ehtiyaclarından biri azadlıqdır" (1).

Bu arada insan və onun inkişafı, təkamülü azadlığa, azadlıqdan törəyən nəticələrə ehtiyaclıdır.

"Azad insanlar o insanlardırlar ki, inkişafları, təkamülləri qarşısına çıxan bütün maneələrlə mübarizə aparır. Bu kimi insanlar heç bir maneəyə baş qaldırmaq üçün yol vermirlər" (2).

## İctimai azadlıq

"İnsan bitkilərin, heyvanların ehtiyaclı olduğu azadlıqlardan başqa bir sıra digər azadlıqlara da ehtiyaclıdırlar ki, biz onları iki qisimə bölürük. Bu azadlıqların bir növü ictimai azadlıqlardır. Yəni insan cəmiyyətdə digər fərdlər tərəfindən azadlığa malik olmalıdır. Başqaları onun inkişafı, tərəqqisi yolunda maneəyə çevrilməməlidirlər. Onu həbs etməməli, məhbus həyatı yaşatmamalıdırlar, fəaliyyətinin qarşısını almamalıdırlar. Başqaları onu istismar etməməli, ona hökm etməməlidirlər" (3). Qurana görə, peyğəmbərlərin (ə) peyğəmbərliyinin məqsədlərindən biri bəşəriyyətə ictimai azadlıq bəxş etmək olmuşdur. Ayələrdən birində deyilir: (Ya Peyğəmbər!) Söylə: "Ey kitab əhli, sizinlə bizim aramızda eyni olan (fərqi olmayan) bir kəlməyə tərəf gəlin! ( O kəlmə budur: ) "Allahdan başqasına ibadət etməyək. Ona şərik qoşmayaq və Allahı qoyub bir-birimizi (özümüzə) Rəbb qəbul etməyək!" Əgər onlar yenə də üz döndərərlərsə, o zaman (onlara) deyin: "İndi şahid olun ki, biz, həqiqətən, müsəlmanlarıq (Allaha təslim olanlarıq)!" (4) Sözügedən ayədəki "Allahdan başqasına ibadət etməyək. Ona şərik qoşmayaq və Allahı qoyub bir-birimizi (özümüzə) Rəbb qəbul etməyək!" ifadələri insanın digər insanlar tərəfindən ictimai azadlığının təmin olunmasına işarədir.

## Mənəvi azadlıq

Azdlığın bir növü də mənəvi azadlıqdır. Bu, digər hər bir şeydən daha dəyərlidir. İctimai azadlıq mənəvi azadlıq olmadan müyəssər olmur, praktiki olaraq özünü doğrultmur. Bugünkü bəşəri cəmiyyətin problemi budur. Bugünkü bəşər ictimai azadlığı təmin etmək istəyir, amma mənəvi azadlığın ardınca getmir. Bu növ azadlığa din təbirincə "nəfsin saflaşdırılması", "təqva" deyilir (5). Şəhid Mütəhhəri bu məsələ ilə bağlı İmam Əlinin (ə) dəyərli bir kəlamını xatırladır: "Həqiqətən, təqva çətinliklərin açarı, məad tədarükü, hər bir padşahın boyunduruğundan azadlığa çıxmaq, hər bir fəlakətdən xilas olmaq deməkdir" (6). Bəşər öz varlığı baxımından, öz ruhu baxımından azad olmalıdır ki, başqalarına da azadlıq bəxş edə bilməlidir.

## Təfəkkür

Bəşərdə mövcud olan ən müqəddəs və azadlığa kəskin ehtiyacı olan istedadlardan biri təfəkkür, düşüncədir. "İnsanın tərəqqiyə nail olmalı ən mühüm hissəsi təfəkkürdür. Şübhəsiz, bu tərəqqi, yüksəliş azadlığa, qarşısında heç bir maneənin olmamasına ehtiyaclıdır. Demək, insan təfəkkürdə azad olmağa ehtiyaclıdır" (7).

Təfəkkür bəşərin zəruri şərtidir. İslam təfəkkür məsələsində nəinki ona azadlıq vermiş, hətta bunu vaciblər sırasına daxil etmiş, ibadət saymışdır.

## Fitrət prinsipi

Fitrət prinsipi İslam maarifində ana qanun hesab olunan bir prinsipdir (8). Həqiqət budur ki, insanın azadlığı yalnız fitrət nəzəriyyəsi çərçivəsində təsəvvür oluna bilər. Yəni insan dünyanın ümumi substansional hərəkəti istiqamətində dünyaya gəlir, onun şəxsiyyətinin ilk təməlini də həmin cəhət formalaşdırır. Daha sonra isə mühit amili təsiri altında təkmilləşir, inkişaf edir. İnsana şəxsiyyət verən cəhət də bu cəhətdir. Belə ki, o, tarixə hakim kəsilir və tarix yolunu təyin edir" (9).

Ustad Mütəhhəri bu məqam üzərində təkidlə dayanır ki, insan bir varlıq olaraq səhvdən, yanlışdan ayrı deyil.

Amma sonunda fitrətin hökmü ilə öz yolunu tapa bilər. "Fitrətin hökmü son olaraq qaçılmaz əmrdir. İnsan bir sıra sağa-sola yönəlmələrdən sonra nəhayət, öz yolunu tapır və ondan əl çəkmir" (10).

Amma burada bəhsin zərurətinə səbəb budur ki, fitrət prinsipinə görə insanın psixologiyası onun onun sosiologiyasından öndədir. İnsanın sosiologiyası onun psixologiyasından qaynaqlanır" (11). Digər tətəfdən isə cəmiyyətin ictimai ruhu insan növünün fitri olaraq son kamilliyə yetməsi üçün seçdiyi vasitədir" (12).

Bu baxımdan mənəvi azadlığa bağlılığın və onun ictimai azadlıqdan öndə olmasının əhəmiyyəti bəlli olur. Hansı ki, insan fitrəti son kamilliyə yetmək üçün onu seçmişdir.

## Şəhid Mütəhhəriyə görə düşüncə və söz azadlığının mehvərləri

### A) Fikir azadlığı ilə etiqad azadlığının fərqi və insan hüquqları konvensiyasının məsələ ilə bağlı səhvi;

"Fikir, düşüncə və etiqad arasında fərq var. Təfəkkür insanın ağıllı olmasından qaynaqlanan bir qüvvədir. İnsan ağıllı varlıq olduğundan mütəfəkkirdir, düşünəndir. O, təfəkkür məsələlərində xüsusi gücə malikdir. Fikirləşdiyindən, düşündüyündən həqiqətlər, gerçəklər müəyyən qədər ona aydın olur" (13). Etiqad, əqidə necə? "Ola bilər ki, insanın etiqad bəsləməsinin, könül verməsinin, insan ruhunun bağlanmasının əsasını da təfəkkür təşkil edir. Belə olan halda onun etiqadı da təfəkkür üzərində qurulur. Lakin bəzən insan bir şeyə etiqad bəsləyir və bu etiqad daha çox ürək işi olur. Ağıl işi yox, hiss işi olur" (14).

Ustad, bu sualın davamı olaraq bildirir: "İnsan rəğbətlər, bağlılıqlar baxımından azad olmalıdırmı? Bu rəğbətlər insanda təəssüb, kortəbiilik, sakitlik əmələ gətirir. Əsasən daha çox fikirin ayağını bağlayan etiqaddır" (15). Ustadın insani hüquqları konvensiyasının 19-cu maddəsinə tutduğu iradın səbəbi də həmin yanaşmadır. Bu maddədə deyilir: "Hamı əqidə və ifadə azadlığına malikdir. Bu hüquq kimsənin öz etiqadından qorxu, gərginlik keçirməməsini təmin edir. İnsan, mümkün olan bütün vasitələrlə, sərhədlər nəzərə alınmadan məlumat toplamaqda, fikirləri öyrənməkdə, onları yaymaqda azaddır" (16).

### B) İslam dünyasında düşüncə azadlığı

Ustad Mütəhhəri öz bərəkətli ömrü boyunca daim çalışmışdır ki, müxalif fikirlər, müxalif əqidələr üçün münasib şərait yaradılsın. O, bu yolda elm çırağı ilə əyintiləri aşkara çıxarmış, İslama doğru gedən yolu işıqlandırmışdır. O, İslam dünyasında, İslam sivilizasiyası və mədəniyyətində bu kimi müxalif nəzəriyyələrin uzun keçmişə malik olduğuna işarə vuraraq bildirir: "Hicri ikinci əsrdən başlayaraq müxtəlif millətlərin birgə yaşadığından fərqli nəzəriyyələr, etiqadlar kəskin toqquşmağa başladı. Materialistlər tam azad şəraitdə elmi dairələrdə və aşkar şəkildə öz etiqadlarını açıqlamağa, başqalarını öz ideologiyalarına dəvət etməyə başladılar. Hətta "Məscid əl-həram"da və "Məscid ən-Nəbi"də silsilə məclislər təşkil olunur və öz etiqadları haqqında söhbət edir, fikir mübadiləsi aparırdılar. Materialistlər üçün dünyanın heç bir yerində bu qədər azad şərait yaradılmamışdır" (17).

### C) Din tərəfdarlarının iradları cavablandırmaqda genişürəkli olmalarının zəruriliyi.

Tarix boyu etiqad və düşüncə azadlığı bəşərin ən dəyərli arzu və ideallarından olmuşdur. İslam tarixində bu növ münasib şəraitin yaradılması hallarını çox görürük. Bu, öz növbəsində misli görünməmiş bir haldır və onun möhkəmlənməsinə, rövnəqlənməsinə gətirib çıxarmışdır. İslam bu azadlıqlar sayəsində yaşaya bildi.

Ustad Mütəhhəri deyir: "Əgər İslamın erkən çağlarında kimsə gəlib: "Mən Allahı qəbul etmirəm", -dedikdə "vurun, öldürün", - desəydilər bu gün artıq İslamdan əsər-əlamət olmazdı. İslam bu gün ona görə yaşayır ki, müxtəlif fikirlərə münasibətdə şücaətli oldu, aydın davranış nümayiş etdirdi" (18).

Sonda o görkəmli alimin gənc nəsilə tövsiyəsini diqqətinizə çatdırırıq: "Mən, gənclərə, İslam tərəfdarlarına xəbərdarlıq edirəm ki, İslamı qorumağın yolunun digər etiqadları izhar etməyin qarşısını almaq olduğunu düşünməsinlər. İslamı yalnız bir güclə qorumaq olar. O güc, elm gücüdür".

**Məhəmməd Rüstəmi**

Qeydlər:

--------------------------------------------------------------------


1. Mütəhhəri, Mürtəza, "Mənəvi azadlıq", səh. 16.
2. Yenə orada.
3. Yenə orada, səh. 17.
4. Yenə orada, səh. 18; "Ali-İmran", 64.
5. Yenə orada, səh. 21.
6. Yenə orada, səh. 22.
7. Mütəhhəri, Mürtəza, "İslam Respublikası haqqında", səh. 92.
8. Mütəhhəri, Mürtəza, "İslam dünya görüşünə giriş", səh. 376.
9. Yenə orada, səh. 363.
10.Yenə orada, səh. 344.
11.Yenə orada, səh. 276.
12.Yenə orada, səh. 342.
13.Mütəhhəri, Mürtəza, "İslam Respublikası haqqında", səh. 93.
14.Yenə orada, səh. 97.
15.Yenə orada, səh. 97.
16.Mütəhhəri, Mürtəza, "Materializmə yönəlmənin səbəbləri", səh. 13.
17.Mütəhhəri, Mürtəza, "İslam Respublikası haqqında", səh. 18.



# Televiziyanın mənfi və müsbət təsir dairəsi

***Müasir dünyamızda media, yəni radio-televiziya və digər informasiya vasitələri insan həyatının ayrılmaz bir hissəsi hesab olunur. Bu informasiya vasitələri arasında, geniş baxıcı kütləsinə malik olan televiziya xüsusi önəm daşıyır. Demək olar ki, müasir dövrümüzdə bütün ailələrdə televiziyanın xidmətlərindən istifadə edilir. Televiziya insanların düzgün şəkildə maariflənməsində olduqca əsaslı və müsbət rol oynayan xüsusi informasiya vasitəsidir. Televiziyanın bu yöndəki xidmətləri danılmazdır. Onun cəmiyyətimizin, xüsusilə də, gənclərimizin inkişafı üçün müxtəlif elmi proqramların hazırlanması, milli mənliyimizin istiqrar qazanması, vətənpərvərlik ruhiyyəsinin yüksəlməsi, mədəniyyətimizin qorunub saxlanması, inkişafı və mənəvi dəyərlərimizə diqqət çəkilməsi yönündəki fəaliyyətləri təqdirəlayiqdir.***

Hazırkı televiziya kanallarında mövcud olan tarixi araşdırmalar, coğrafi bilgilər, psixoloji məlumatlar, ailə-məişət problemlərinin həlli istiqamətində ərsəyə verilən verilişlər, elm və texnologiyanın müxtəlif sahələrinə aid olan məsələlər və sair kimi çoxsaylı proqramlar, cəmiyyətimizin maariflənməsi ilə yanaşı, savadlı gələcəyimizə də işıq tutur. Lakin diqqət etmək lazımdır ki, bir sıra televiziya verilişlərinin fəal müsbət yönləri olduğu kimi, mənfi yönləri də çoxdur və tamaşaçılar istər-istəməz, müsbət yöndə olduğu kimi, həmin mənfi istiqamətdə də təsirlənə bilirlər.

**Televiziya proqramlarına ümumi surətdə nəzər saldıqda, bir neçə dəstəyə bölmək mümkündür:**

1.Xəbər proqramları
2.Əyləncə proqramları
3.Xarici və yerli filmlər
4.Uşaq proqramları
5.İntellektual oyunlar
6.İdman proqramları
7.Dünya və ölkə gündəmi ilə bağlı xüsusi proqramlar
8.Ailə proqramları
9.Elmi araşdırmalarla bağlı proqramlar
10.Milli-mədəni dəyərlərlə bağlı proqramlar
11.Mənəvi inkişaf verilişləri
12.Yerli və xarici seriallar və sair

Sözsüz ki, cəmiyyətdə bütün bu növ verilişlərə ehtiyac duyulur. Çünki, insan hər bir sahədə öz təbii ehtiyaclarını təmin etməlidir. İstər əyləncə olsun, istər elmi düşüncə olsun, istərsə də, dünya və ölkə xəbərləri. Maraqlı bir məqam vardır ki, ilk baxışda bu proqramların tam şəkildə faydalı olduğunu düşünülür. Amma bir az dərindən düşünəndə və daha incəliklə diqqət edəndə, başa düşmək olur ki, heç də insanın düşündüyü kimi deyilmiş. Doğrudur, hər bir veriliş, xüsusi tamaşaçı kütləsi və yaş həddi üçün hazırlanır. Lakin hər veriliş xüsusi bir yaş həddi üçün nəzərdə tutulsa belə, bəzən onun hazırlanma tərzində, icra formatında, izləyiciyə verdiyi nəticə və hədəflər öz məqsədindən uzaq olur. Yaxud, başqa bir ibarə ilə desək, bəzi proqramlar yanlış hədəf üzərində tamamlanır. Bu, bəzən bilərəkdən həmin formatda tənzimlənmədiyi halda baş tutsa da, bəzi vaxtlar da, məqsədli şəkildə həyata keçirilir.

Bu yazıda istəyimiz bəzi televiziya proqramlarının pərdə arxası hədəflərinə toxunmaqdır. Orta hesabla götürsək, dünyada müstəqil və heç bir təşkilata, siyasi-iqtisadi cərəyana bağlı olmayan televiziya kanalları çox azdır. Mövcud kanalların əksəriyyəti, hansısa gücün, təşkilatın mənafelərini qorumaq üçün yaradılmışdır. Deməli, müəyyən şəxslər və qurumların mənafelərinə xidmət edən televiziya kanallarının bir çoxu, öz proqramlarını məqsədyönlü hədəflərin üzərində kökləyəcəklər. Burada bəzən xəbərlərin düzgün şəkildə çatdırılmaması, insanların yanlış yöndə maarifləndirilməsi, mənəvi dəyərlərin sərt şəkildə tapdanması, cəmiyyətin psixologiyasının mənfi şəkildə təsirlənməsi və sair kimi məqamlara diqqət çəkmək yerinə düşərdi. Ümumiyyətlə, dünyada hegemonluq etmək

niyyətində olan bəzi qüvvələrin insanların fikirlərini istismar etməsi, bu sahədə külli miqdarda büdcələr ayrılması heç kimə gizli deyildir. İnsanların düşüncəsini öz mənafelərini təmin edən şəkildə, vahid formada yönəldib idarə etmək, hegemon qüvvələrin əsas prinsiplərindəndir. Onlar televiziya vasitəsilə cəmiyyətdə qorxu, tamahkarlıq, cahillik, şəhvət, kobudluq, laqeydlik, xudpəsəndlik, ayrı-seçkilik və onlarla işarə etmədiyimiz xüsusiyyətləri yaymaqla, insanlar üzərində ən mühüm və qorxulu istismar növünü, fikri istismarı icra edirlər.

Gəlin, bu məsələlərə xülasə şəkildə diqqət edib və üzərlərində daha dərindən düşünək. Az da olsa, yuxarıda adını çəkdiyimiz hədəflərin hər birinə qısaca izah verək.

**Qorxu:** Cəmiyyətdə müxtəlif sahələrdə qorxu hissini, daha çox hegemon dövlətlər yaratmaq istəyirlər. Belə ki, öz proqram və filmləri sayəsində, qüdrətlərinin yenilməz və mübarizə olunmayacaq dərəcədə olmasını nümayiş etdirirlər. Bunun bariz nümunəsi isə amerikan filmləridir. Bu filmlərdə, insanlara super dövlətlərin dünyada yeganə güc olması və bütün bəşəriyyətin nicat yolunun ona tabe olmasında olduğu çatdırılır. Eyni zamanda, insanlarda qorxu yaradılır ki, böyük hegemon dövlətlə heç bir dövlət mübarizə edə bilməz və hər bir halda, hətta insanların kütləvi şəkildə məhv edildiyi səhnələrdə belə, bu gücün haqlı olması nümayiş etdirilir. Yəni, bu filmlər sayəsində, güclü dövlətlər nağıllardakı divlər kimi insanların zehninə həkk olunur. Həmçinin, işğallara haqq qazandırılır, hegemon dövlətlərin qoşunları daim xilasedici rolunu oynayır.

**Tamahkarlıq:** Bu hiss, ifratı dünya sevgisindən qaynaqlanan bir hissdir. Bəzi film və proqramlar isə, bu hissi daha da gücləndirir. Bəs bu nə ilə nəticələnir? Nəticəsi isə insanların maddi məsələlərdə inadkarlığı, dünyapərəstliyi, sərvət ələ gətirmək üçün hər bir vasitəyə əl atmalarına səbəb olur. Buna misal olaraq, bəzi filmlərdə və reklamlarda, maddi cəhətdən yüksək imkana malik olan şəxslərin, əzəmətli, qürurlu nümayiş edilməsi, daim ətrafındakı insanların yüksək şəkildə diqqət mərkəzində olması, bütün məsələlərdə son sözü söyləməsi və sair kimi doğru olmayan, hətta yoxsul şəxsləri təhqir edəcək gücə malik fikirlər formalaşdırmasını qeyd etmək olar. Bunlar, yəqin ki, bəzən sizlərin də diqqətinizi özünə çəkib. Və öz içinizdə dərin bir nəfəs alaraq, “axx... mən




də, belə bir sərvətə, gücə malik olsaydım heç dərdim olmazdı, hər kəs ətrafımda pərvanə tək fırlanardı...” -dediyniz anlar olub. Belə filmlər və reklamlar insanlarda tamahkarlıq hissi yaradır, onlarda sanki ucalmaq, yüksəlmək üçün təkcə sərvət sahibi olmağın lazım olması düşüncəsinin təməlini qoyur. Bu tamahkarlıq hissi, insanları hər bir çirkin işə əl uzatmağa vadar edə bilər. Burada, əziz Peyğəmbərimizin (s) bir hədisini xatırlamaq yerinə düşərdi. O dahi insan buyurub: “Hər bir günahın, pis bir işin başlıca səbəbi dünya sevgisidir.” Bəli elə bu dünya sevgisinin təməli, tamahkarlıqla qoyulur. İslam dininə görə, dünyapərəstlik bəşər övladını ən çirkin və şeytani əməllərə çəkən xüsusiyyətdir. Dünyapərəst insan, bütün dəyərləri asanlıqla tapdayar və başqalarının hüquqlarını əzib keçər. Onun azğınlığı və acgözlüyü daim insanlara əzab verər.

**Cahillik:** Televiziya proqramlarının bəzən insana verdiyi məlumatlar, onun dünya görüşünü daraldır. İnsanın bəzi sahələrdə inkişafının qarşısını alır. Misal olaraq, hər xalqın gözəl və dəyərli adət-ənənələrini, onun bu gün də, hava su kimi ehtiyac duyduğu milli-mənəvi üstünlüklərini əlindən alaraq, əvəzində Qərbin bir sıra düzgün olmayan mədəniyyətini təqdim edir. Diqqət etmək lazımdır ki, hegemon qüvvələr, heç bir zaman elm və texnologiyanın sirlərini kiçik, yaxud az inkişaf etmiş dövlətlərlə paylaşmır, amma öz mədəni dəyərlərini onların arasında böyük canfəşanlıqla yayır. Çünki, mədəni işğal daha güclü təsir bağışlayır. Məsələn, bəzi televiziya proqramlarında insanlara zahiri gözəlliyin önəmi o qədər şişirdilir ki, batini və mənəvi səciyyələrin mənasız olması düşünülür, yaxud da ikinci səthdə önəm daşıyır. Bu məsələ, qərb dünyasında böyük problemlər yaratdığı və

onların bununla mübarizə etdiyi halda, düşünülmüş şəkildə bəzi proqramlar vasitəsilə bir sıra ölkələrdə təbliğ edilir. Məhz cahillik dəyərlərinin yayılması, insani dəyərlərə laqeydliyin nəticəsində, bəzi qərb ölkələrində, hətta ən yüksək fikrin formalaşdığı tədris müəssisələrində belə, zahiri, milli, irqi və maddi ayrı-seçkiliklər, təhqirlər nəticəsində şagirdlərin öz sinif yoldaşlarını güllələməsi və sair kimi məsələlər diqqətdən qaçmamalıdır.

**Şəhvət:** Hər bir insanın daxilində olan bu hiss özü-özlüyündə gözəl və təbii bir hissdir. Lakin əgər yerində və həddində istifadə olunmasa, fərdi və ictimai həyatımızda çoxsaylı problemlər yarada bilər. Çünki, cəmiyyətdə fitnə-fəsadların yaranması əksər hallarda şəhvət hissinin kontrol edilməməsi nəticəsində olur. Bir çox televiziya proqramları, məhz elə insanların bu hissinin kontrolsuz şəkildə istifadə etməsinə sövq etdirir. Bu da, öz növbəsində, fəsadlara və fəsadlar isə cəmiyyəti təşkil edən ailə həyatına olduqca mənfi təsir edir. Bəzi filmlərin və xarici serialların həqiqi sevginin şəhvət şəklində nümayiş etdirməsi, ailə təməlinin şəhvətə qurban verilməsinə sövq etdirməsi, qarşılıqlı ailə sədaqətinin müqəddəsliyini sual altına apararaq, möhkəm ailə təməllərini sarsıdır.

İnsanın yalnız özünü sevməsi: İnsanın özünü sevməsi yaxşı və bəyənilən bir xüsusiyyətdir. Hər bir insan, həyatda özünə görə yaxşı olan şeyləri sevir, pis hallardan nifrət edir. Amma diqqətli olmaq lazımdır ki, bəzi vaxt, öz şəxsi mənfəətlərmizi ictimai mənfəətlərdən üstün tutmamalıyıq. Özümüzün də, bu cəmiyyətin bir üzvü olduğumuzu anlayıb, şəxsi mənafeyə deyil, ictimai mənfəətlə dəyər verməliyk. Bəzi televiziya proqramları isə, ictimai mənfəətləri deyil, şəxsi faydalara qiymət verməyə həvəsləndirir. Belə ki, bəzi filmlərdəki müsbət xarakterlər də, xudpəsənd olduğu üçün tənqid edilən və mənfi rolda yer alan şəxslə mübarizə aparmasına baxmayaraq, özü də, mübarizə yollarını məhz xudpəsəndlik və lovğalıq üzərində icra edir. Bu, sanki, xudpəsəndliyin və lovğalığın yalnız bəzi şəxslərə icazə verildiyini, başqalarının isə belə bir haqqa malik olmadığını söyləmək istəyir. Belə ki, müşahidə etdiyimiz bəzi filmlərdə, baş rolu ifa edən qəhrəmanlar, xudpəsəndliklə və lovğalıqla mübarizə edərkən, elə həmin mənfi xüsusiyyətləri icra etməklə buna nail olur. Bir sözlə, cəmiyyətdə "hədəf vəsiləyə haqq qazandırır"-demək istəyir.

**Kamran Məmmədov**

# Kamil möminin sahib olduğu 4 xüsusiyyət

***Gözəl əxlaq elə bir nemətdir ki, dünyadakı heç bir neməti onunla müqayisə etmək olmaz. Hədislərin birində oxuyuruq: "Qiyamət günü insanın əməl tərəzisində heç bir həqiqət, gözəl əxlaqdan ağır ola bilməz". (Tebyan)***

*İnsanın əgər imanı çox və güclü olarsa, ancaq əxlaqı gözəl olmazsa, imanı ona fayda verməmişdir deməkdir. Ona görə də möminlər iman cəhətdən bir-biri ilə bərabər deyildirlər. Bəzilərinin imanı zəifdir, bəzilərinin güclü və bəzilərinin də orta həddədir. Bəzilərinin isə imanı kamildir və hər biri o biri dəstədən daha üstündür. Bu, o insanlardır ki, əxlaq cəhətdən ən gözəl sifətlərə malikdirlər. Yaxşı insanların bütün cəhətləri onlarda cəm olmuşdur. İlahi peyğəmbərlər (ə) və məsum İmamlarımız (ə) buna aydın nümunədirlər.*

*İmam Baqir (ə) buyurur: "İman cəhətdən ən kamil mömin - əxlaq cəhətdən ən yaxşı olanlarıdır". Məlum olur ki, gözəl əxlaq olmadan insan varlığında olan iman naqis qalar. Əxlaq insanı kamala çatdırar.*

*Quran ayələrindən və hədislərdən belə nəticəyə gəlmək olur ki, gözəl əxlaq insanın zinəti olduğu kimi həm də günahlarını yuyar, Allahın rəhmətini özünə cəlb edər. İmam Sadiq (ə) buyurur: "Dörd sifət vardır ki, əgər kimdəsə olsa, imanı kamil olar. Baxmayaraq ki, başdan-ayağa günahı olsa belə, bu günahlar ondan bir şey azaltmaz. Həmin dörd şey: sadiq olmaq, əmanətdarlıq, həya və gözəl əxlaqdır".*

*İmam Səccad (ə) buyurur: "Dörd şey vardır ki, əgər kimdə olsa, imanı kamil olar. Günahları əməl dəftərindən pak olar, Allahla o halda görüşər ki, ondan razı olar. O kəs ki, insanların xeyrinə olan müsbət işi öhdəsinə götürərsə Allah üçün ona vəfa etsin, dili insanlarla düz danışsın, Allah dərgahında və insanlar qarşısında hər bir qəbahətli işdən həya etsin, ailəsi ilə əxlaqı gözəl olsun".*

*İmamın (ə) bu nurani sözləri Quranın bu ayəsini xatırladır: "Gərək (onların acıdil və kobud olmalarını) əfv etsinlər və (təqsirlərindən) keçsinlər. Məgər Allahın sizi bağışlamasını istəmirsiniz? Allah çox bağışlayan və mehribandır". ("Nur" 22).*

*Hər bir möminin arzusu budur ki, Qiyamət günü Peyğəmbərə (s) ən yaxın insanlardan olsun. Həzrət (s) bu haqda buyurur: "Qiyamət günü sizlərin mənə məqam baxımından ən yaxın olanınız - əxlaq cəhətdən ən üstün olanınız və ailəsinə ən yaxşı olanınızdır".*

# İmam Əli və insan hüquqları

***O, daha çox hz. Məhəmmədin ən yaxın səhabəsi, silahdaşı, ən böyük sərkərdəsi, müsəlmanların imamı kimi tanınır. Altmış üç illik zəngin ömrü dünya tədqiqatçıları tərəfindən hələ də öyrənilir, araşdırılır. Həyatı kamil insan, səhabə, ictimai-siyasi xadim, hökumət başçısı olaraq səciyyəvidir, örnəkdir. İnamı, imanı, səmimiyyəti, fədakarlıqlığı, qətiyyəti, konkret desək həyat tərzi ilə hz. Məhəmməddən sonra ən ideal şəxsiyyət hesab edilir.***

***Əli ibn Əbutalib (599-661) Məkkədə - Kəbə evində dünyaya göz açıb. Atası Əbutalib, anası isə Fatimə bint Əsəddir. Hz. Məhəmmədin kürəkənidir, qızı Fatimə ilə ailə qurub. Bu evlilikdən Həsən, Hüseyn, Möhsün, Zeynəb və Ümmü-Külsüm adlı övladları dünyaya gəlib. Hakimiyyətinin beşinci ilində İraqın Kufə şəhərində məsciddə namaz qılarkən qətlə yetirilib. Qəbri Nəcəf şəhərindədir.***

### Allahın şah əsəri

İnsan Allahın şah əsəri sayılır, O, daha çox bu yaratdığı ilə öyünüb, alqışlayıb Özünü (23:14). Dünyaya yeni gələn insan dilsizdi, bəlli bir dinə mənsub deyil, insanların müxtəlif irqlərə bölünməsindən xəbəri də yoxdur hələ. Amma insandır, şüurlu, düşüncəli. Böyük bir ruh daşıyır içində - sevgiylə, məhəbbətlə dolu.

İmam Əlinin də görmək istədiyi toplum belə idi: körpəlik saflıqlarını qoruyub, saxlaya bilən insan kütləsi, şəxsiyyət etibarı ilə irqlərə, dillərə, dinlərə bölünməyən bir cəmiyyət (Nəhcül-bəlağə, 53-cü məktub). İnsanlıq ətrafında birləşən, bütün davranışları ali dəyərlərə hesablanan dövlət qurmaq əzmindəydi.

Əlbəttə ki, ucuz başa gəlmirdi bu istəklər Əli üçün. Ərəblərin onu tək qoymasının əsas səbəblərindən biri də millətçilik etməməsiydi, ərəblə əcəm arasında heç bir fərq qoymaması idi. Qohumbazlıq etməməsiydi Əlinin yalqız qalmasının bir səbəbi. Fərdi münasibətdə ancaq ali insani keyfiyyətləri, ictimai-siyasi məsələlərdə, kadr seçimində isə həm də peşəkarlığı, ixtisası diqqət mərkəzində saxlayırdı. Bu da böyük bir qrup, hətta sabiq silahdaşları üçün dözülməz idi, Cəməl müharibəsi bu qəzəbdən baş vermişdi.

İnsan oğlunun təhqir olunması, alçalması çox ağır gəlirdi ona, istənilən bir yolla bunun qarşısını almağa çalışırdı (Nəhcül-bəlağə, qısa kəlamlar: 322). Başqalarını təhqir edənlər cənnətə gedə bilməz, deyirdi (Səduq, "Xisal").

Ən böyük arzusu insanları azad görməkdi, buna çağırırdı, "Allah sizi azad xəlq edib, başqalarının kölәsi olmayın", (Nəhcül-bəlağə, 31-ci məktub) deyə səslənirdi. "Hamı azad xəlq edilib. Bəzilərinin qul olması şəxsi seçimləridir" (Kafi, c. 7, səh. 420), - belə təhlil edirdi şəxsləri.

Azad sözün, açıq tənqidin tərəfdarıydı.- Fikrinizi, iradınızı bildirin, susmayın, yaltaqlığa son qoyun, inanın ki, haqq sözünüz mənə ağır gəlmir, - buna çağırırdı hər bir fürsətdə (Nəhcül-bəlağə, xütbə 207).

Əməliylə də bunu göstərirdi, hakimiyyəti dönəmində belə ona qarşı mövqe tutanları, saygısızlıq göstərənləri hədələmirdi, onlara cəza kəsmirdi ("Kafi", c. 5, səh. 38). Hətta düşmənə qarşı belə ədalətsizliyi, insafsızlığı kişilikdən saymırdı (Ğürər əl-hikəm, c. 1, səh. 562), "qüdrətli şəxsin əfv etməsi çox gözəldir" (Ğürər əl-hikəm, c. 1, səh. 688), "İnsanları əfv etdiyinə görə, heç vaxt təəssüflənməyin, kəsdiyiniz cəzalara görə isə sevinməyin" - deyirdi (Nəhcül-bəlağə, 53-cü məktub). Bütün pisliklərə təpkisi ancaq dua olardı - adamların islah olması, tərbiyəli olması ümidi ilə.

### Mütərəqqi insan hüquqları

İnsan hüquqları prinsipinə görə, bütün insanlar insan olmalarına görə eyni hüquqa malikdirlər və aralarında heç bir fərq yoxdur. Bu hüquqlar Ümumdünya insan hüquqları bəyannaməsi və ya digər beynəlxalq sənədlərdə göstərilir. Əli ibn Əbutalibin Malik ibn Haris Nəxəiyə (Malik Əştər) yazdığı

məktub (Nəhcül-bəlağə, 53-cü məktub) da insan hüquqlarını ehtiva edən dini sənəd kimi böyük əhəmiyyət kəsb edir. Adıötən məktubda demək olar ki, dövlət və vətəndaş, onların qarşılıqlı hüquqları haqqında geniş söz açılır.

### Eyni hüquqlu insanlar

İmam Əlinin Qurani-kərim və sünnəyə söykənən hökumət modelində ədalət və hüquq bərabərliyi başda dayanır. Burada qəti şəkildə dini, irqi fərqlərə görə hüquqlar dəyişmir, hamı qanun qarşısında bərabərdir. Toplum siniflərə ayrılmır, təbəqələşmə ilə sərt mübarizə aparılır, dövlət-rəiyyət ayrımı nəzərə çarpmır.

“Bütün insanlar üçün bərabər hüquq nəzərdə tutulmalıdır”, - İmam Əli hökumətinin əsas şüarı budur (Nəhcül-bəlağə, 50, 59-cu məktublar; Bihar əl-ənvar, c. 32, səh, 17). Amma təəssüflər olsun ki, o, bu addımına görə heç vaxt təqdir olunmadı, əksinə “niyə hüquqlar bərabər tutulur, niyə beytülmal xalq arasında bərabər şəkildə bölünür” , -deyə xüsusi imtiyaz güdən şəxslərin kəskin etirazlarıyla qarşılaşdı, qınanıldı (Nəhcül-bəlağə, 196-cı xütbə).

Bütün bunlara baxmayaraq o, haqlı mövqeyindən əsla geri çəkilmirdi, “mən hz. Məhəmmədin (s) sünnəsinə uyğun addım atıram” (yenə orada) - deyib, bütün bu qanunları tətbiq etməyə cəhd göstərirdi. Hətta doğmaca qardaşı, görmə qabiliyyətini itirmiş Əqil ibn Əbutalibə belə kiçik də olsa əlavə imtiyaz vermirdi (İbn Şəhr Aşub, əl-Mənaqib, c. 2, c. 108). Yaxud dövlət xəzinəsindən üç günlük qızıl əşyası əmanət götürən qızını və bu istəyi həyata keçirən xəzinədarı ciddi tənbih edib, qızına “əgər qızıl əşyanı əmanət götürməsəydin, sənə qarşı ən sərt cəzanı tətbiq edərdim”, - deyir (Vəsail əş-şiə, c. 28, səh. 292 ).



### Hamı üçün təhsil

İmam Əlinin əsas hədəflərindən biri də savadsızlıqla mübarizə aparmaq idi. O, islam ümmətini cəhalətdən, savadsızlıqdan uzaq görmək istəyirdi. Mütərəqqi, savadlı bir cəmiyyətin arzusundaydı. Bu istəyin həyata keçməsi üçün çalışırdı, xüsusi büdcə ayırmışdı (Bihar əl-ənvar, c. 27, səh. 251).

### Əmək təqaüdü alan xristian

İmam Əlinin hakimiyyəti dönəmində nəzərdə tutulan hüquqlardan biri də əmək təqaüdü idi. Məlum olduğu kimi, bu qanun dünyada ilk dəfə rəsmi olaraq Almaniyada 1881-ci ilin noyabrında qəbul edilib və sonra sürətlə digər ölkələrdə də tətbiq edilib. Görünür ki, beynəlxalq praktikda 19-cu əsrdə tətbiq edilən qanunu İmam Əli 7-ci əsrdə həyata keçirmişdi. Maraqlıdır ki, bu əmək təqaüdü ilk dəfə bir xristian şəxsə verilir.

İmam Əli yol kənarında dilənçilik edən kor qoca ilə rastlaşır. Onunla maraqlanır. Deyirlər ki, bu xristian şəxs gəncliyində iş sahibi olsa da hazırda əmək qabiliyyətini itirib. “Gəncliyində əməyindən istifadə etdiyiniz bir şəxsi indi köməksizmi qoyursuz? Beytülmaldan ona pul ayırın”, - Əli ibn Əbutalib belə tapşırıq verir.

(Vəsail əş-şiə, c. 15, səh. 66)

Yuxarıda qeyd edilən fakt dini azlıqların hüquqlarının müdafiəsi kimi də böyük əhəmiyyət kəsb edir.

**Niyam Aqil**





# ÜÇ QURAN PRİNSİPİ



***1. Tarixdən məlum olduğu kimi, başər müəyyən bir zaman kəsiyində əldə etdiyi biliklər toplusuna sistematiklik hakim olmamışdır. Zaman keçdikcə başər çoxsaylı, müxtəlif təcrübələri sınamaqla öz biliklərini modelləşdirməyə, sistemləşdirməyə və bununla da yavaş-yavaş qeyri-sistematik bilik fenomenini aradan qaldırmağa başlamışdır. Modellər və qaydalar isə hər bir sistematik biliyin əsas bünövrələrini təşkil edir.***

***2. Qurani-Kərimə nəzər saldıqda şahidi oluruq ki, bu müqəddəs kitab bilik sahəsində önəmli hesab olunan bir neçə qaydanı təkidlə vurğulamışdır. Həqiqi biliyə nail olma, onları sistemləşdirmə istiqamətində bir neçə lazımi prinsipi qeyd etmişdir. Bu yazımda onları qısa şəkildə şərh etməyə çalışacam.***

## 2.1. Sübutun avtoritetliyi prinsipi

Qurani-Kərim bir çox ayələrində insanları həyatın bütün sahələrində -istər nəzəri problemlər, istərsə də əməli problemlər müstəvisində- "sübut"a əsaslanmağa, başqa sözlə, "sübutmərkəzli" olmağa dəvət edir: "Əgər doğru deyirsinizsə, sübutunuzu gətirin!" (məs; Bəqərə, 111; Nəml, 64; Əmbiya, 24; Qasas, 75)

Həqiqi bilik əldə etmə istiqamətində insanın əsaslana biləcəyi yeganə metod sübutdur. İnsan məhz sübutün köməyilə hər hansı bir şeyin cəfəng olub-olmadığını müəyyənləşdirə və batili haqdan ayıra bilir. Hər bir sübut iki hissədən- forma və məzmundan təşkil olunur. Şərti dillə desək, əgər "A" "B"-dirsə və "B" də "C"-dirsə, onda "A" "C"-dir. Burada həm forma, həm də məzmun yəqin xarakterli olmalıdır ki, həqiqi biliyə nail olmaq üçün obyektiv gerçəkliyi kəşf edə bilsin. Sübutun ifadə etdiyi yekun biliyə yalnız deyilən şərtlə etimad etmək mümkündür, əks təqdirdə, ifadə edilən biliyin heç bir qiyməti qalmayacaqdır. Deməli, yalnız sübut işığında müddəalar qəbul və ya rədd edilməlidir.

Quran bu prinsipdən çıxış edərək bir neçə ikinci dərəcəli prinsipi də təsbit edir:

### 2.1.1. Kortəbii təqlidin inkarı

Quran məntiqində kiminsə sözü və ya rəftarı qarşısında kortəbii təqlid sərgiləmək yolverilməz bir hərəkətdir. Belə bir hərəkət əslində sübuta qarşı çıxmaq və onu inkar etmək deməkdir. Kortəbii təqlidin mahiyyətinə diqqət etdikdə, onda təəssübkeşlik, zorakılıq, emosiya izlərinə rast gələ bilərik. Bu kimi təqliddə Tanrının insanlığa elçisi olan ağıl və onun bilgi məhsulları, mesajları üçün heç bir yer yoxdur. Misal üçün, Bəqərə surəsinin 170-ci ayəsində belə oxuyuruq: "Onlara: "Allahın göndərdiyinə tabe olun!"- deyildiyi zaman, onlar: "Biz ancaq atalarımızın getdiyi yolla gedəcəyik!"- deyirlər. Bəs ataları heç bir şey anlamayıb doğru yolda deyildirsə necə?"

### 2.1.2. Zənnə uymanın inkarı

Quranın bilik sahəsində müdafiə etdiyi epistemoloji yanaşma "yəqin xarakterli bilik" təməli üzərində qurulub. Bu yanaşmada zənn, güman tamamilə inkar edilir və ondan doğan biliyin həqiqəti əks etdirə bilməsi qəbul edilmir: "Zənn əsla həqiqət ola bilməz!" (Ənam, 116; Nəcm, 28). İnsan zənnin əsarətində olduqca, heç bir zaman subyektivlik bataqlığından xilas ola bilməyəcək. Bu əsasla, insan inam şəbəkəsindəki zehni obrazla onun obyekti arasındakı adekvatlığa əmin ola bilməyəcək və daim öz xəyali obrazları ilə formalaşdırdığı həqiqətsiz bir dünyada yaşamağa məhkum olacaqdır. Quran problemin çıxış yolunu "elm/ yəqin"ə tabe olmaqda görür: "Elmin olmadığı bir şeyin ardınca getmə!" (İsra, 36)

### 2.1.3. Subyektivliyin inkarı

İnsanın həqiqətə çatmasının qarşısını alan



maneələrdən biri də "subyektivlik"dir. Subyektivliyin müxtəlif formaları vardır, o cümlədən, nəfsani istəklərə uyma, biliksiz hərəkət etmə, önmühakiməli davranma və s. bu kimi neqativ halları qeyd etmək olar. Öz ətraf dünyası ilə subyektiv münasibət qurmağa çalışan kəs gerçəkləri olduğu kimi deyil, istədiyi kimi görəcəkdir. Quran ədəbiyyatında belə bir insan "sapıq və sapdıran" olaraq adlandırılmışdır. Tarix boyu və bu gün də bu kimi insanlar həmişə insanlıq üçün zərərverici olmuşlar. Nümunə olaraq bu iki ayəni nəzərdən keçirək: "...Şübhəsiz ki, çoxları biliksiz nəfsani istəklərinə uyaraq (insanları) sapdırır." (Ənam, 119), "...Nəfsani istəyə uyma, yoxsa o, səni Allah yolundan sapdırar." (Sad, 26)

### 2.2. Dialoq prinsipi

Dialoq dialektik bir metod kimi həqiqəti tapmaq, kəşf etmək üçün ən gözəl üslublardan biri hesab olunur: "... Onlarla ən gözəl formada mübahisə -dialoq et!" (Nəhl, 125) Dialoq zamanı həqiqət və onun qaranlıq qalan bir çox tərəfləri, aspektləri insana aydın olur. Dialoq həm də düşüncələri, fikirləri qarşı tərəfə çatdırmaq üçün bir metod kimi çıxış edir. Quranın dialoq üslubunda təkidlə vurğuladığı modellərdən biri "qurucu tənqid"dir. Bu modeldə, ilk olaraq oponentin müddəaları rədd edilir, sonra münasib alternativ çıxış yol təqdim edilir və yaxud da, münasib alternativləri araşdırmağa çağrılır. Bu əsasla, gəlin, bu ayəni dialoq şəkilində anlamağa çalışaq: "Onlara: "Allahın göndərdiyinə tabe olun!"- deyildiyi zaman, onlar: "Biz ancaq atalarımızın getdiyi yolla gedəcəyik!"- deyirlər. Bəs ataları heç bir şey anlamayıb doğru yolda deyildirsə necə?" (Bəqərə, 170)

Quranın üzərində dayandığı dialoq modellərindən biri də postulat və önqəbullardan çıxış etməyən dialoq modelidir. Bu modeldə dialoqun tərəfləri özlərini həqiqətə çatmaq qarşısında maneə sayılan önfərziyyələrdən təcrid edərək müzakirəyə başlayırlar. Müzakirənin qaydaları, təməlləri isə dialoq prosesinin özündə qurularaq formalaşır: "...Elə isə doğru yolda olan, yaxud açıq-aşkar sapqınlıqda olan bizik, yoxsa siz?" (Səba, 24)

Quran bu növ dialoq modelinə praktiki bir nümunə olaraq hz. İbrahimin öz cəmiyyətilə olan dialoqunu göstərir. Ənam surəsində keçən bir neçə ayədə ( 74-81-ci ayələr) təqdim olunan bu dialoq yuxarıda qeyd etdiyimiz modelin ən bariz nümunəsidir. Bu nümunədə dialoq etikasından, məntiq normalarına bağlılıqdan və sübutmərkəzlilikdən başqa heç bir halın şahidi olmuruq.

### 2.3. Hikmət prinsipi

"Hikmət" Quranın bilik sahəsindəki prinsiplərindən biri hesab olunur. Buna görə də, bir çox fundamental fərdi və ictimai problemlərlə hikmət arasında bağlılıq qurur. Quran həm də çoxsaylı ayələrində Allahı hikmət sahibi kimi tanıtdırır.

Hikmət insanları metafizik bilik qaynağı olan vəhyi anlamağa dəvət etmək üçün əsas açar kimi çıxış edir: "İnsanları hikmətlə Rəbbinin yoluna dəvət et..." (Nəhl, 125) Bundan əlavə, Allah Quranda öz elçilərini və yaxın dostlarını da hikmət sifəti ilə xarakterizə edir, o cümlədən, hz. Davud, hz. İbrahim və hz. Loğmanı nümunə kimi göstərmək olar. Hz. Loğman ilahi elçi olmamasına baxmayaraq, ağılda üstünlük, şəxsiyyətdə tarazlıq və başqasına açıq olma kimi yüksək bir dərəcəyə yalnız hikmət vasitəsi ilə nail ola bilmişdir. Quran bu barədə birmənalı şəkildə bildirir: "... Kimə hikmət bəxş edilmişsə, ona çoxlu xeyir verilmişdir." (Bəqərə, 269) Deməli, Quran nöqteyi-nəzərindən hikmət bilik problemləri ilə məşğul olmaq üçün əsaslı bir prinsip hesab olunur.

### 3. Nəticə

Yuxarıda deyilənlərdən belə bir nəticə əldə etmək olar ki, Quran məntiqinə görə, bilik sahəsində tədqiqat obyekti olan problemlərlə təmasda olmaq, onları rezlizə etmək və sistemləşdirmək üçün yuxarıda qeyd olunan üç əsas prinsipə yiyələnmək vacibdir. İnsan istənilən hər hansı bir bilik problemini çözmək (çözmək- istər anlama formasında, istər isbat və ya inkar formasında, istərsə də mövcud bilikləri sistemləşdirmə formasında olsun) niyyətindədirsə, o zaman sübutun avtoritetliyi prinsipini rəhbər tutaraq dialoq çərçivəsində hikmətlə hərəkət etməlidir.

**Emin İmanlı**

# ÖZ KƏŞFLƏRİNİN QURBANI OLAN 10 DAHİ



***İxtiralarını sınaqdan keçirərkən dünyalarını dəyişənlər.***

***1. MARİYA KÜRİ***

***Nobel mükafatını qazanan ilk qadın olan Küri də öz ixtirasının qurbanı olub. Çox yüksək radioaktivliyə malik radium və polonium elementlərini kəşf edən Küri I Dünya Müharibəsində yaralı əsgərləri müalicə etmək məqsədilə radiumdan alınan radon qazından istifadə edib. Ömrünün böyük hissəsini radioaktiv elementlərin içində keçirən Kürinin sağlamlığı getdikcə pozulub. Küri 4 iyul 1934-cü ildə 66 yaşında anemiyadan dünyasını dəyişib.***



***2. VİLM NELSON***

***24 yaşlı ixtiraçı Ceneral Elektrik"kompaniyasında işləyib. O motorlu velosiped ixtira edib. Nelson 1903-cü ildə öz yaratdığı işi sınaqdan keçirərkən ölmüşdü.***



***3. HORAS LOUSON HANLİ***

***Konfederasiya ordusunda hüquqşünas və dəniz mühəndisi kimi fəaliyyət göstərən Hanli ABŞ Vətəndaş Müharibəsində sualtı qayıq ixtirası ilə məşhurlaşıb. Sualtı qayıqla ilk səfərində 9 nəfərlik heyətin 5 nəfəri dünyasını dəyişib. Daha bir sınaqda özü də içində olmaqla bütün heyət ölür.***



***4. ALEKSANDR BOQDANOV***

***Boqdanovun adı bəlkə çoxuna yaddır, ancaq kəşf et-***



***diyi müalicə üsulu haqqında hamı məlumatlıdır: qan köçürməsi. İqtisadçı, professor, həkim Boqdanov gəncləşmək eşqi ilə bir neçə dəfə özünə qan köçürüb. 11 dəfə uğur qazana bilən həkim 12-ci dəfə uğursuzluğa düçar olub. Həkimlər onun infeksiyalı, yaxud uyğun olmayan qan istifadə etdiyi üçün öldüyünü deyirlər.***

**5. FRANS RAYXELT**

*Dərzi Frans Rayxelt öz uçmaq marağı ilə mübarizə aparıb. İlk cəhd uğurlu alınmır və o beşinci mərtəbədən yıxılır. İxtiraçı eksperimentin niyə alınmadığını heç cürə anlamırdı. Və bu zaman o, qərar verir ki, mənzili torpağa çox yaxın yerləşir. Polis və hüquq-mühafizə orqanları Eyfel qülləsindən tullanmağa cəhd edərkən onu dəfələrlə həbs etmişdilər. Amma bütün bunlara rəğmən, dostların və təsadüfi tamaşaçıların dilə tutmalarına baxmayaraq, tullanma baş tutur və paraşüt açılmır...*



**6. UİLYAM BALLOK**

*1863-cü ildə fırlanan çap maşınını kəşf edən Uilyam Ballok bir gün təsadüfən xarab olan maşına əsəbləşərək onu təpikləyib. Belə bir versiya da var ki, bilməyərəkdən ayağı maşının harasınasa ilişib. Ayağı infeksiyaya yoluxub və o, bir müddət sonra qanqrenadən dünyasını dəyişib.*



**7. KİÇİK HARRİ DAQLİAN VƏ LUİ SLOTİN**

*Hər iki fizik Los-Alamosda atom bombası icad etmək üzərində işləyirdilər. Onlar radiasiyanın təsirindən 1945 və 1946-cı illərdə öldülər.*



**8. KAREL SUSEK**

*Niaqara şəlaləsini özünün düzəltdiyi çəlləkdə fəth edən daha bir cəsur. 1985-ci ildə həmin çəllək Karel içində olarkən Hyustonda tryuk göstərən zaman dağılmışdı.*




**9. MAKS VALYE**

*Raket istehsalının pioneridir. O, maye yanacaqlı raket mühərriki ixtira edib. Bu mühərrik raket avtomobilində sınaqdan keçirilərkən partlayıb və Maks Valyeni öldürmüşdü.*



**10. TOMAS ENDRÜS**

*İrland Tomas Endrüs mindən çox insanın ölümünə səbəb olan "Titanik" gəmisinin mühəndislərindən biri olub. O, Titanik batan həmin gecə - 1912-ci ildə içində idi. Endrüs da həmin gəminin sərnişinləri kimi Atlantik okeanının dibinə yuvarlanıb.*





# TİBBUR-RƏSUL
## (Peyğəmbər təbabəti)

**Xəstəliklərə qarşı duz...**

Həzrət Peyğəmbər (s) buyurur: Allah-Taala Həzrət Musaya (s) vəhy etdi ki, yeməyə duzla başla və yeməyi duzla başa çatdır. Duzda yetmiş xəstəliyin dərmanı var, bu xəstəliklərin kiçiyi dəlilik, cüzam, ala, boğaz ağrısı, diş və qarın ağrısıdır.

**Burunu qorumaq üçün...**

Dəstəmaz aldığınız zaman burnunuza azca su çəkin və geri qaytarın... Həzrət (s) buyurur: Kim yuxudan oyanıb dəstəmaz alsa üç dəfə burnuna su alıb qaytarsın. Çünki şeytan burunda yuva qurar.

**Cinsi yaxınlıqdan sonra...**

Həzrət Peyğəmbər (s) buyurur: Cinsi yaxınlıqdan sonra sidiyə gedib qüsl verməsən kanalda qalan məni çarəsiz xəstəliyə səbəb olar.

**Dərhal qüsl!**

Həzrət Peyğəmbər (s) buyurur: Kişi üçün məkruhdur ki, möhtəlim olandan sonra qüsl verməmiş yaxınlıq etsin. Möhtəlim olandan sonra qüslsüz yaxınlıq etsə və dünyaya dəli övlad gəlsə yalnız özünü məzəmmət etsin.

**Təzə gəlin ilk həftədə...**

Həzrət Peyğəmbər (s) buyurur: Ey Əli! Təzə gəlinə ilk həftədə süd, sirkə, kişniş, turş alma vermək olmaz. Çünki bunları yediyi zaman uşaqlığı soyuyar, sonsuz olar. Sirkə içsə iltihab yaranar və heç vaxt kamil paklanmaz. Kişniş heyz qanı gətirər, doğuşu çətinləşdirər. Turş alma heyz qanının qarşısını alar, xəstəlik yaradar.

**Heyz vaxtı qadağa...**

Həzrət Peyğəmbər (s) buyurur: Kim zövcəsi ilə heyz vaxtı yaxınlıq etsə və övladı cüzam ya ala vəziyyətdə dünyaya gəlsə yalnız özünü məzəmmət etsin... Həzrət (s) buyurur: Ey mənim ümmətim! Allah sizin üçün 24 şeyi bəyənməyib və qadağan edib. Bunlardan biri heyz zövcə ilə yaxınlıqdır. Bu halda uşaq dünyaya xəstə vəziyyətdə gəlsə müqəssir özüdür.

**Sidik gələn zaman...**

Həzrət Peyğəmbər (s) buyurur: Bayıra çıxmağı gələn adam bu işi görməmiş yaxınlıq etsə babasil yaranar. Sidiyi gələn halda yaxınlıq edən şəxsin dişinin dibi və məxrəcində xəstəlik yaranar.

**Sünnət lazımdır?**

Allah-Taala dost adlandırdığı Həzrət İbrahimə (s) İslam ayinlərini göndərdi. Ona bığı və dırnaqları qısaltmağı, bədən tüklərini qısaltmağı və sünnət etməyi göstəriş verdi... Həzrət (s) buyurur: Övladlarınızı doğulandan sonra yeddinci gündə sünnət edin. Bu paklıq yaradar, uşağı ətə-qana gətirər.

**Görmə qabiliyyətini gücləndimək üçün...**

Həzrət Peyğəmbər (s) buyurur: Daim Qurana baxan insan nə qədər ki, həyatdadır gözləri görəcək... Həzrət (s) buyurur: Qurana baxmaqla onu oxuyanın görmə qabiliyyəti qorunar.

**Göbələk və göz...**

Həzrət Peyğəmbər (s) buyurur: Göbələk behişt bitkilərindəndir. Göbələk suyu göz üçün faydalıdır... Göbələyin suyu gözə şəfa verər.

**Heyva və göz...**

Həzrət Peyğəmbər (s) buyurur: Heyva yeyin, bir-birinizə heyva bağışlayın. Çünki heyva gözü işıqlandırar, qəlbdə məhəbbət yaradar... Həzrət (s) buyurur: Heyva yemək gözün qaranlığını aradan qaldırar.

**İmam Hüseynə (ə) tövsiyələr...**

Həzrət Peyğəmbər (s) İmam Hüseynə (ə) buyurdu: Övladım arxan üstə yat ki, qarnın kiçik olsun. Suyu aram iç ki, ləzzət alasan. Sürmə çək ki, gözlərin işıqlansın. İki gündən bir bədəninə yağ çək ki, peyğəmbər sünnəsinə əməl etmiş olasan.

**Yeməkdən əvvəl və sonra...**

Yeməkdən əvvəl və sonra əlləri yumaq yoxsulluğu, qəm-qüssəni aradan qaldırır, gözlərə sağlamlıq verir.

**Hamilə qadın üçün...**

Həzrət Peyğəmbər (s) buyurur: Hamilə qadına kundur verin. Əgər bətindəki uşaq kundurla qidalansa ürəyi möhkəm, düşüncəsi güclü olar. Övlad oğlan olsa cəsarətli, qız olsa gözəl olar.

**İlk dəfə xurma...**

Həzrət Peyğəmbər (s) buyurur: Övladlarınızın ağzını xurma ilə açın. Həzrət Peyğəmbər (s) Həsənə beləcə xurma verdi...

**Doğuşdan sonra...**

Yeni doğmuş qadın üçün xurmadan, xəstə üçün baldan faydalı şey yoxdur... Həzrət (s) buyurdu: Yeni doğmuş qadının ilk yediyi şey xurma olsa yaxşıdır. Allah-Taala Məryəmə buyurdu ki, ağacın budağını silkələ, təzə xurma tökülsün... Yeddi ədəd Mədinə xurması, olmasa yeddi ədəd əyalət xurması yedirin. Allah buyurur ki, and olsun izzət və cəlalıma yeni doğmuş qadın xurma yesə övladı dözümlü olar.

**Südün təsiri...**

Həzrət Peyğəmbər (s) buyurur: Xəstə, gözü zəif qadını dayə tutmayın. Çünki südün təsiri var... Körpəyə ona süd verən qadının xüsusiyyəti sirayət edir.

**Bədəndə alanın səbəbi...**

Beş şey bədəndə alaya səbəb olur: Cümə və çərşənbə günləri bədənə nurə çəkmək (tükü tökmək üçün), günəş altda qızmış su ilə dəstəmaz və qüsl, cünub halda nəsə yemək, heyz zövcə ilə yaxınlıq, tox ikən yemək.

**Dəriyə təsirli...**

Peyğəmbər (s) Həzrət Əliyə (ə) buyurdu: Duzdan istifadə et, duz cüzam, dəridə ala və dəlilik də daxil olmaqla 70 xəstəliyin dərmanıdır.

**Dərini necə qorumaq?**

Həzrət Peyğəmbər (s) buyurur: Hər bir müsəlman həftədə bir dəfə qüsl verməli, baş və bədənini yumalıdır... Hər tükün altda cənabət var, tükləri yuyun, dərini təmizləyin.

**Yorğunluğa qarşı...**

Bir yerə gedəndə həmin yerin soğanından yeyin. Gözünüz işıqlanar, tükləriniz təmizlənər, belinizin suyu artar, yerişiniz itiləşər, çöhrəniz açılar, yorğunluğunuz aradan qalxar.

**Zökəm və dəri xəstəlikləri...**

Həzrət Peyğəmbər (s) buyurur: İnsan bədənində iki mühüm damar var. Biri cüzama səbəb olan baş damarı, biri dəridə ala yaradan bədən damarı. Əgər baş damarında fəsad yaransa Allah zökəm xəstəliyi ilə onu sağaldar. Əgər bədən damarında fəsad yaransa Allah kurək xəstəliyi ilə onu aradan qaldırar. Buna görə də zökəm və kurək olanda Allaha şükür edin.

**Bir daha ət və süd haqqında...**

Həzrət Peyğəmbər (s) buyurur: Ət və süd bədəni ət-qana gətirər, sümükləri möhkəmləndirər. Eləcə də ət görmə və eşitmə qabiliyyətini artırar.

**Babasilə qarşı...**

Həzrət Peyğəmbər (s) buyurur: Babasil xəstəliyini aradan qaldırmaq üçün təzə ya quru əncir yeyin. Əncir cinsi qabiliyyəti artırar, soyuqdəyməni aradan qaldırar.







# BİZİM PUSQU-MUZDA DAYANMIŞ SƏKKİZ GÖZƏTÇİ

***Məsuliyyət hiss etməyimiz üçün Quran ayələrinə və məsumlardan nəql olunan hədislərə nəzər salaq. Mütəal Allah tərəfindən hər gün bizə səkkiz gözətçi nəzarət edir. Bu gözətçilər bizi əhatə edib pis və yaxşı hərəkətimizi, sözümüzü yazırlar, yaxud onları saxlayırlar. Nəzarətçilər bunlardan ibarətdir:***

**1- Məkan;**
"Zilzal" surəsinin 4-cü ayəsində buyurulur: "Qiyamət günü yer öz hekayəsini söyləyəcəkdir".

**2-Zaman;**
İmam Əli (ə) buyurur: "Günlər hər gün deyər:
Mən təzə günəm. Məndə etdiyin hər bir əmələ şahidəm".

**3-Dil;**
Quranda "Nur" surəsi, 24-cü ayədə buyurulur: "Qiyamət günü insanların dilləri (onlar qazandıqları günahlarını dandıqda) etdikləri əməllər barəsində onların əleyhinə şəhadət verəcəklər".

**4-Bədən üzvləri;**
"Yasin" surəsinin 65-ci ayəsində buyurulur: "Bu gün onların ağızlarını möhürləyərik. Etdikləri əməllər barəsində onların əlləri Bizimlə danışar, ayaqları isə şəhadət verər".

**5-İki mələk;**
Quranda "İnfitar" surəsinin 10-cu ayəsində buyurulur: "Şübhəsiz, sizin üstünüzdə gözətçi mələklər vardır".

**6-Əməl kitabı;**
"Casiyə" surəsinin 29-cu ayəsində buyurulur: "Bu, bizim kitabımızdır (sizin əməl dəftərinizdir). O sizinlə haqqı danışar. Biz sizin etdiyiniz əməlləri (orada mələklərə bir-bir) yazdırmışıq!"

**7-Peyğəmbərlər və imamlar (ə);**
"Nisa" surəsinin 41-ci ayəsində buyurulur: "Hər ümmətdən (peyğəmbərini) əməllərinə şahid gətirəcəyimiz və səni (Peyğəmbəri) də onlara şahid təyin edəcəyimiz zaman halları nə cür olacaq?"

İmam Sadiq (ə) buyurub: "Bu ayə Rəsulullahın (s) ümməti barədə nazil olubdur ki, hər əsrin (dövrün) özünün İmamı (ə) vardır və onların əməlinə şahiddir. Həzrət Məhəmməd (s) biz İmamlara (ə) da şahiddir". (Üsuli kafi, 1-ci cild, səh.190.)

**8-Rəhman Allah;**
Hər şeydən öncə bizim hamımız Allahın hüzurundayıq və O bizim əməllərimizə şahiddir. "Yunus" surəsinin 61-ci ayəsində buyurulur: "Siz nə iş görsəniz, Biz ona şahidik".

Tanınmış təfsir alimi Əllamə Bursəvi, bu gözətçilər barəsində bir neçə məqamı bəyan etdikdən sonra deyir: "Ey günahkar! Bütün bu gözətçilər və şahidlər barədə nə düşünürsən və nə edəcəksən?"

Bəli, bu, bizim böyük Allah qarşısındakı vəziyyətimizdir. Əlbəttə gərək naümid olmayaq. Çünki Allahın rəhməti qəzəbindən böyükdür. Nə qədər ki, möhlət verilib, gərək ondan istifadə edərək məsuliyyət hiss edib, vəzifəmizi yaxşı yerinə yetirək və tövbə suyu ilə öz günahlarımızı yuyaq. Çünki Allah-təala buyurub: "Əgər Mənim bəndəm bir saat Mənə hüsni-zənn (yaxşı güman) etsə, onu Cəhənnəm odu ilə qorxutmaram". (Təfsire ruhul-bəyan, Əllamə Bursəvi, 10-cu cild, "Zilzal" surəsi, 4-cü ayənin şərhində bu barədə kamil şəkildə izah verilib.)

Belə halda şübhəsiz, bu gözətçilərin yanında üzüağ olarıq. Gərək heç vaxt Allahın rəhmətinə sui-zənndə (pis gümanda) olmayaq. Bu, böyük günahlardan sayılır. Bu göstərişləri və əməlləri yerinə yetirməklə qadınlar da çətinlikdən nicat taparlar.